Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 113 (7840) BAZAR, 20 may 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik





# İlham Əliyev innovativ islahatların yeni mərhələsinə başladı

**Prezidentin inkişaf konsepsiyası əsasında görülən işlər ölkə iqtisadiyyatının yüksəlişinə mühüm töhfələr verəcək**

Prezident İlham Əliyev ölkədə idxal-ixrac əməliyyatlarına nəzarət sisteminin təkmilləşdirilməsi ilə əlaqədar mühüm sərəncam imzalayıb. Sənədə əsasən maliyyə nəzarəti sahəsində uçotun şəffaflaşdırılması, büdcə yığımlarının artırılması, qeyri-neft məhsullarının ixracı üzrə prosedurların sadələşdirilməsi, ixracın həcminin artırılması istiqamətində ciddi addımlar atılacaq. Həmçinin bu istiqamətdə dövlətin fiskal siyasətini həyata keçirən orqanların fəaliyyəti səmərəli şəkildə əlaqələndiriləcək.

### İdxal-ixrac əməliyyatlarına birgə nəzarət mexanizmi tətbiq edilir

Yeni sənədə əsasən Azərbaycanda bir sıra idxal-ixrac əməliyyatları üzrə Dövlət Gömrük Komitəsi və Vergilər Nazirliyi tərəfindən birgə nəzarət mexanizminin tətbiqi məqsədəuyğun hesab edilib. Sərəncamda göstərilir ki, Maliyyə, Vergilər, İqtisadiyyat nazirlikləri və Dövlət Gömrük Komitəsi idxal-ixrac əməliyyatları üzrə birgə nəzarətlə əhatə olunacaq prosedurların siyahısına, mexanizminə dair təkliflərini bir ay müddətində dövlət başçısına təqdim etməlidirlər.

Əlavə edək ki, hələ ötən ilin may ayında Nazirlər Kabinetinin qərarına əsasən ixrac-idxal əməliyyatlarında sərhəd-keçid məntəqələrində tələb olunan sənədlərin sayı da azaldılmışdı. Bu, sahibkarların ixrac-idxal missiyalarını daha asan həyata keçirə bilməsinə yönəlmiş növbəti islahat tədbirlərinin bir hissəsi idi.

### İdxal-ixrac əməliyyatları üzrə nəzarət Departamenti yaradılıb

Dövlət başçısının "Ölkədə idxal-ixrac əməliyyatlarına nəzarət sisteminin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" sərəncamından irəli gələn vəzifələrin həyata keçirilməsi məqsədilə Vergilər Nazirliyində yeni struktur - Vergilər Nazirliyi yanında İdxal-ixrac əməliyyatları üzrə nəzarət Departamenti yaradılıb.

Departamentin yaradılmasında məqsəd maliyyə nəzarəti sahəsində uçotun şəffaflaşdırılması, büdcə yığımlarının artırılması, qeyri-neft məhsullarının ixracı üzrə prosedurların sadələşdirilməsi, ixracın həcminin artırılması və bu istiqamətdə dövlətin fiskal siyasətini həyata keçirən orqanların fəaliyyətinə dəstəyin verilməsi və idxal-ixrac əməliyyatlarına nəzarət sisteminin təkmilləşdirilməsidir.

### Prosedurların sadələşdirilməsi islahatların tərkib hissəsidir

Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan iqtisadi islahatlar nəticəsində son illər sahibkarların öz ixrac-idxal əməliyyatlarını daha rahat şəkildə yerinə yetirmələri üçün bir sıra tədbirlər həyata keçirilib. Eyni zamanda, ölkənin ixrac potensialından tam səmərəli istifadə olunması üçün hökumət tərəfindən bir sıra addımlar atılıb, müvafiq sənədlər imzalanıb. Bu sahədə xeyli nailiyyətlər əldə olunub.

Son sərəncam, yəni, idxal-ixrac prosedurlarının sadələşdirilməsi həyata keçirilən iqtisadi islahatların tərkib hissəsidir. Ekspertlərin fikrincə, ölkədə ixrac potensialının tam səmərəli istifadə olunmasının əsas məqsədi ondan ibarətdir ki, ölkə iqtisadiyyatı bilavasitə qeyri-neft məhsullarının ixracatından gələn gəlirlər üzərində köklənsin. Makroiqtisadi dayanıqlıq qeyri-neft məhsullarının ixracı üzərində dayansın. Bu, eyni zamanda, idxal əməliyyatlarına da ciddi nəzarət olunması siyasətinin aparılmasını tələb edir. İdxal-ixrac əməliyyatlarına nəzarətin səmərəliliyində əsas prinsiplərdən biri prosedur qaydalarının olduqca sadə olmasıdır. Əsas olan vaxt itkisi probleminin yaranmaması, eyni zamanda, rüsum və vergi tətbiqi mexanizmlərində qiymət artımına yol verilməməsidir.

### Yalnız iqtisadiyyatı güclü olan ölkələr müstəqil siyasət apara bilərlər

Bu sərəncamdan iki gün öncə, aprelin 18-də Prezident İlham Əliyev müəllifi olduğu proqramlara, layihələrə toxunaraq, həm son 15 il ərzində görülən işlər, həm də gələcək illərdə aparılacaq islahatlar haqqında məlumat vermişdi.

İlk növbədə, müstəqil siyasət aparmağın yolunun güclü iqtisadiyyatdan keçdiyini vurğulayan dövlət başçısı bununla ölkəmizin müstəqil iqtisadiyyata malik olduğunu, o cümlədən mümkün iqtisadi risklərdən tam qoruna bilməyə sahib bir sistem qurulduğunu vurğulamışdı: "Biz son 15 il ərzində iqtisadi islahatlar aparmışıq və iqtisadi məsələlərə xüsusi diqqət yetirmişik. Çünki mən dəfələrlə demişəm və həyat bunu göstərir, ancaq iqtisadiyyatı güclü olan ölkələr müstəqil siyasət apara bilərlər".

Dövlət başçısı qeyd etmişdir ki, əgər bir dövlət hansısa qurumdan, ölkədən kredit alırsa heç vaxt, sözün əsl mənasında, müstəqil siyasət aparmaq iqtidarında olmayacaq. Azərbaycan isə bu gün iqtisadi müstəqilliyinə qovuşub və indi heç bir kreditə möhtac deyil.

Mayın 10-da ümummilli lider Heydər Əliyevin 95 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə isə Prezident son 15 il ərzində iqtisadi inkişaf baxımından Azərbaycan qədər sürətlə inkişaf edən ikinci ölkənin olmadığını demişdir: "Bizim iqtisadiyyatımız üç dəfədən çox artmışdır. Aparıcı beynəlxalq təşkilatlar, Davos İqtisadi Forumu Azərbaycanı rəqabətqabiliyyətliliyinə görə dünyada 35-ci yerə layiq görübdür, inkişaf edən ölkələr arasında isə biz 3-cü yerdəyik. Bizim çox böyük iqtisadi resurslarımız var. Bizim valyuta ehtiyatlarımız xarici borcumuzdan 5 dəfə böyükdür".

*Ardı 4-cü səh.*

## Kamerun Respublikasının Prezidenti zati-aliləri cənab Pol Biyaya

Hörmətli cənab Prezident!

Kamerun Respublikasının milli bayramı münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 may 2018-ci il*

## Kuba Respublikası Dövlət Şurasının və Nazirlər Şurasının Sədri zati-aliləri cənab Migel Dias-Kanel Bermudesə

Hörmətli cənab Sədr!

Ölkənizdə baş vermiş təyyarə qəzası nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni son dərəcə kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Kuba xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 may 2018-ci il*

## Vaşinqtonda Transxəzər regionu ilə bağlı strateji müzakirələr aparılıb

ABŞ-ın paytaxtı Vaşinqtonda ikigünlük Transxəzər Forumuna start verilib. Forumun əsas məqsədi Transxəzər region dövlətləri, o cümlədən Azərbaycan, Qazaxıstan, Gürcüstan, Türkiyə, Əfqanıstan, Özbəkistan və Türkmənistan tərəfindən həyata keçirilən infrastruktur layihələri, mövcud biznes, ticarət və sərmayə imkanları barədə ABŞ-ın siyasi, akademik və biznes ictimaiyyətinin məlumatlandırılmasıdır.

AZƏRTAC xəbər verir ki, 3 milyondan çox üzvü olan nüfuzlu ABŞ Ticarət Palatası və Xəzər Siyasət Mərkəzinin təşkilatçılığı ilə keçirilən, ilk dəfə olaraq ABŞ Ticarət Palatasının Ağ ev ilə üzbəüz yerləşən möhtəşəm "Hall of Flags" auditoriyasında baş tutan forumda ABŞ administrasiyası və region dövlətlərinin yüksək rütbəli nümayəndələri bir araya gələrək Transxəzər regionunun potensialını müzakirə ediblər. Tədbirdə ABŞ dövlət qurumlarının, akademik təşkilatların, biznes və siyasi dairələrin, diplomatik korpusun 200-dən çox nümayəndəsi iştirak edib. ABŞ Ticarət Palatasının vitse-prezidenti Qari Litman və Xəzər Siyasət Mərkəzinin direktoru Əfqan Niftiyev forumun açılışında tədbirin əhəmiyyətindən danışıblar.

ABŞ dövlət katibinin iqtisadiyyat və biznes məsələləri üzrə köməkçisinin birinci müavini Brayn Makfiters çıxışında müasir İpək yolunun vacib komponenti olan Transxəzər dəhlizinə ölkəsinin dəstəyini ifadə edib. O, bu dəhlizin Şərq-Qərb yükdaşımalarının həyata keçirilməsində mühüm rolunu vurğulayıb və bu xüsusda ABŞ-ın tərəfdaş olmaqda marağını çatdırıb. ABŞ rəsmisi region ölkələrinin bu dəhlizin inkişafı sahəsində mühüm infrastruktur layihələri həyata keçirdiklərini və bu xüsusda ötən il açılışı olan Bakı-Tbilisi-Qars dəmir yolunun əhəmiyyətini diqqətə çatdırıb. B.Makfiters ABŞ-ın bu istiqamətdə region ölkələri ilə yaxından əməkdaşlıq etməyə hazır olduğunu və yaxın zamanlarda özünün regiona səfər etmək niyyətinin olduğunu söyləyib.

*Ardı 4-cü səh.*

## İqtisadiyyatda qazanılan uğurlar Gəncənin sürətli inkişafını təmin edir

Son illər Azərbaycanda qazanılan uğurları ölkəmizin ikinci böyük şəhəri Gəncənin timsalında görmək olar. Qədim Nizami yurdunun siması o qədər dəyişib ki, şəhərə gələn əcnəbi qonaqlar indi onu inkişaf etmiş Avropa şəhərləri ilə müqayisə edirlər.



Elə Gəncənin ən mötəbər tədbirlərə evsahibliyi etməsi də bu inkişafın müsbət göstəricisidir. 2016-cı ildə Avropa "Gənclər paytaxtı", 2017-ci ildə MDB ölkələrinin "Mədəniyyət paytaxtı" seçilən Gəncə bu gün özünün çiçəklənən dövrünü yaşayır. Haqlı olaraq şəhər sakinləri yaşadıqları bu qədim şəhərlə fəxr edir, onun daha böyük uğurlara imza atması üçün əllərindən gələni əsirgəmirlər. Xüsusilə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gəncəyə etdiyi səfərlər şəhərin həyatında yeni mərhələ açmaqla yanaşı, onun daha da inkişaf etməsinə stimul yaratmışdır.

Hər ili yüksək göstəricilərlə yola salan şəhər sakinləri cari ilə uğurla başlamış, 2018-ci ilin birinci rübü ərzində də qarşıya qoyulmuş tapşırıqların yerinə yetirilməsi istiqamətində mühüm işlər görmüşlər. Belə ki, şəhər üzrə ümumdaxili məhsul istehsalı və xidmətlərin həcmi 236 milyon manat olmuşdur ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 19,9 faiz çoxdur. Nəticədə işləyən əhalinin orta aylıq əməkhaqqı 4,4 faiz artmışdır.

Uğurla reallaşdırılan iqtisadi islahatların əsas prioritetlərindən biri də ixracın genişləndirilməsidir. Son 3 ay ərzində şəhər müəssisələrində istehsal olunmuş məhsulların 53,9 faizi Rusiya, Türkiyə, Ukrayna, Belarus, Gürcüstan və digər ölkələrə ixrac olunmuşdur. Bu sahədə "Gəncə dəyirman" MMC, "MKT İstehsalat Kommersiya" MMC, "Gəncə Tekstil" ASC, "Azəri-Ərəboğlu", "DET.Al Alüminium" MMC, "Gəncə Əlvan Metal Emalı" ASC və Gəncə Avtomobil Zavodu xüsusilə fərlənmişdir.

Ölkə rəhbərinin tapşırıq və tövsiyələrinə uyğun olaraq şəhər sakinləri bütün sahələrdə yenidənqurma və abadlıq işlərini də uğurla davam etdirmişlər. Təməli Prezident İlham Əliyevin xeyir-duası ilə qoyulmuş 500 tamaşaçı tutumu olan Gəncə Dövlət Dram Teatrının yeni binasının və idman sarayının tikintisinə başlanılmışdır.

Bundan başqa, Üzeyir Hacıbəyli küçəsində yerləşən və qəzalı vəziyyətdə olan yataqxanada yaşayan insanların köçürülməsi üçün Nizami küçəsi ilə Kimyaçılar küçəsinin kəsişməsində yeni binaların, 2016-cı ildə yağan yağışlar nəticəsində evlərinə ziyan dəymiş vətəndaşlar üçün fərdi yaşayış evlərinin inşası da cari ildə davam etdirilmişdir.

*Ardı 5-ci səh.*

*Azərbaycanın daxili işlər orqanları - 100*

# İstiqlalın canlı sipərləri

19 may 2015-ci il...

Bakıda yeni bir yaz səhəridir. Paytaxt səması aydın və dupdurudur. Ağ buludlarda yerdəki əmin-amanlığın, hüzurun sakitliyi duyulur sanki.

Qəfil şəhərin şimal-qərb səmtindən göylərə bülənd olan qara tüstü bu həzin sakitliyi bir andaca pozur. İlk dəqiqələrdə insanlar nəyin baş verdiyini bilməsələr də, hamı nəsə dəhşətli bir faciənin yaşandığının fərqindədir.

Və tezliklə sosial şəbəkələrdə görünən ilk qısa xəbərlər...









*Azərbaycan polisi hər cür ekstremal şəraitdə fədakarlığa hazır olduğunu daim sübut edir*

Tüstünün çıxdığı məkanda baş verənlər doğrudan da sözlə təsviri mümkünsüz faciədir. Anidən böyük bir binanı ağuşuna almış alovun dilimləri mərtəbə-mərtəbə yüksələrək mənzilləri bir-bir işğal edir. Ana oğlundan, ata qızından, baba-nənə nəvələrindən ayrı düşüb. Hamı vahimə içində çırpınır. Bir tərəfdən yanğının qorxusu, bir tərəfdən də doğmalarının içəridə yanıb kül olması vəhşəti insanları çarəsiz durumla üz-üzə qoyub. Hamı içəridəkilərin xilası üçün nəsə etmək istəyir, amma alov və onun zəhərli qara tüstüsü o qədər güclüdür ki, binaya daxil olmaq labüd ölümə getmək deməkdir.

Bu an gənc polis çavuşu irəli şığıyır, özünü oda atır, qara tüstüdən görünməz olan binaya daxil olub bir müddət sonra qucağında körpə alovun içindən çıxır! Ölümün çəngindən qopardığı balacanı ətrafdakılara təhvil verərək yenidən binaya - alovla, qara nəfəsli ölümlə mübarizəyə, insan həyatını xilas etməyə qayıdır!

Hamının həyəcan içində olduğu bir zamanda hadisə yerində çəkiliş aparan "Assoşieyted Press" agentliyinin müxbiri məqam taparaq çöhrəsindən cəsarət və mətinlik yağan, öz həyatını düşünmədən darda qalan insanların xilasına tələsən polis nəfərinin surətini kameranın yaddaşına köçürür...

Növbəti gün dünya informasiya agentlikləri Bakıdakı dəhşətli yanğından epizodlarla yanaşı, dörd nəfər insanın həyatını xilas edən polisin də şəklini səxavətlə paylaşmışdı.

Günün hadisəsi yanğın, günün qəhrəmanı isə Azərbaycan polisi sayılmışdı!

Əslində, polis çavuşu Emin Abışov o müdhiş hadisə zamanı, yalnız insanların həyatını xilas etməmişdi. Həm də mənsub olduğu strukturun gündəlik iş fəaliyyətinin bütün mahiyyətini qəhrəman obrazının əbədiləşdiyi foto vasitəsilə ictimailəşdirmişdi.

Bakıda baş vermiş ağır yanğın hadisəsini işıqlandıran dünyanın ən nüfuzlu kütləvi informasiya vasitələri də məhz bu fotonu belə bir başlıq altında yaymışdılar: "Qəhrəman polis".

❖ ❖ ❖

Bu, Azərbaycan polisinin qəhrəmanlığıdır!

Amma onun qəhrəmanlığının hamısı deyil!

Saysız-hesabsız qəhrəmanlıq nümunələrindən yalnız biridir, sırf təsadüf üzündən fotokameranın obyektivinə yaxalanmış ani epizoddur. Əslində, Azərbaycan polisi eyni qəhrəmanlığı hər gün, hər yerdə nümayiş etdirir!

İnsanları, həyatımızın sakit axarını qorumaqdan ötrü özünü ölümün ağzına atır. Əli silahlı cinayətkarların üzərinə bəzən hətta yalın əllə gedərək igidlik göstərir. Həyatını, sağlamlığını şüurlu surətdə təhlükədə qoyan Azərbaycan polisi dövlətə və cəmiyyətimizə layiqincə xidmət edir!

Bütün risklərə, çətinliklərə rəğmən, öz missiyasını şərəflə yerinə yetirir, mübarizliyini, sayıqlığını bir an belə əldən vermir.

Əfsus ki, bunların hamısını çəkib göstərmək, yaymaq, şəkillərin, videotəsvirlərin yaddaşında əbədiləşdirmək mümkün olmur. Çünki polis xidmətə gedəndə özü ilə fotoqraf, jurnalist aparmır. Həm də hansı təhlükə ilə üzləşəcəyini irəlicədən bilmir. Ona görə də polisimizin qürur doğuran fəaliyyətinin bəlkə heç 90 faizindən xəbər tutmuruq. Onların əməyi, fədakarlığı əksər hallarda mətbuatdan kənarda qalır.

Biz bu əmək, fədakarlıq, qəhrəmanlıq sayəsində yaradılan sabitliyi, rahatlığı, özgüvəni isə daim duyub hiss edirik, həyatımızın hər saniyəsində yaşayırıq. Amma insanlarda, ümumən cəmiyyətdə bu hissin hansı çətinliklər bahasına yarandığının bəlkə də heç fərqində olmuruq.

❖ ❖ ❖

İndi isə onların qəhrəmanlığının 100-cü ildönümünü qeyd etməyə hazırlaşırıq.

Məhz qəhrəmanlığının 100-cü ilini...

Azərbaycan polisi düz bir əsrdir ki, Azərbaycan xalqını müxtəlif təhlükələrdən, cinayətkar ünsürlərdən və ayrı-ayrı təhdidlərdən qoruyur.

"Polis" sözünün ilkin mənası "dövlət" deməkdir. Azərbaycan polisinin fəaliyyəti də Azərbaycan dövlətinin elan olunması ilə başlanır. Bəli, Azərbaycan polisi istiqlalımızın, Cümhuriyyətimizin yaşıdıdır.

Qədim dövlətçilik irsinə malik Azərbaycanda asayişin qorunması və cinayətkarlığa qarşı sistemli mübarizə ənənəsi Avropada polis xidmətinin yaranması ilə eyni vaxta təsadüf edir.

*Ardı 3-cü səh.*

AZƏRBAYCAN www.azerbaijan-news.az

## “Azərbaycan Respublikasında vətəndaşların pul gəlirlərinin və əmanətlərinin indeksləşdirilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasında vətəndaşların pul gəlirlərinin və əmanətlərinin indeksləşdirilməsi haqqında” Azərbaycan Respublikasının Qanununu “İşsizlikdən sığorta haqqında” Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli 765-VQ nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

“Azərbaycan Respublikasında vətəndaşların pul gəlirlərinin və əmanətlərinin indeksləşdirilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 12, maddə 445; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 11, maddə 687, № 12, maddə 736; 2003, № 1, maddə 16; 2005, № 8, maddə 691; 2007, № 5, maddə 401; 2017, № 6, maddə 1057) aşağıdakı dəyişikliklər edilsin:

1. 3-cü maddənin birinci hissəsinin üçüncü abzasından “işsizliyə görə,” sözləri çıxarılsın.

2. 6-cı maddənin ikinci hissəsinin yeddinci abzası ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 aprel 2018-ci il*

## “Azərbaycan Respublikasında vətəndaşların pul gəlirlərinin və əmanətlərinin indeksləşdirilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1086-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasında vətəndaşların pul gəlirlərinin və əmanətlərinin indeksləşdirilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1086-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Azərbaycan Respublikasında vətəndaşların pul gəlirlərinin və əmanətlərinin indeksləşdirilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Azərbaycan Respublikasında vətəndaşların pul gəlirlərinin və əmanətlərinin indeksləşdirilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 may 2018-ci il*

## “Ünvanlı dövlət sosial yardımı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq, “Ünvanlı dövlət sosial yardımı haqqında” Azərbaycan Respublikasının Qanununa “İşsizlikdən sığorta haqqında” Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli 765-VQ nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

“Ünvanlı dövlət sosial yardımı haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 11, maddə 1005; 2008, № 6, maddə 474, № 7, maddə 602, 2015, № 3, maddə 257) 3-cü maddəsində “orqanında” sözündən sonra “dövlət orqanının və ya hüquqi şəxsin ləğv edilməsi və ya işçilərin sayı və ya ştatların ixtisar edilməsi ilə əlaqədar” sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 aprel 2018-ci il*

## “Ünvanlı dövlət sosial yardımı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1084-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Ünvanlı dövlət sosial yardımı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1084-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Ünvanlı dövlət sosial yardımı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Ünvanlı dövlət sosial yardımı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 may 2018-ci il*

## Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 12 dekabr tarixli 823 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 12 dekabr tarixli 823 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 12, maddə 718; 2007, № 5, maddə 460, № 11, maddə 1117; 2008, № 6, maddələr 496, 497; 2009, № 12, maddə 983; 2010, № 2, maddə 83, № 3, maddə 182; 2011, № 2, maddə 85; 2012, № 11, maddə 1115; 2014, № 10, maddə 1180; 2015, № 8, maddə 913; 2016, № 5, maddə 880, № 6, maddə 1031; 2017, № 3, maddə 388, № 6, maddə 1070, № 9, maddə 1636) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti haqqında Əsasnamə”nin 3-cü bəndinin birinci cümləsinə “qurumlar” sözündən sonra “(xüsusi təyinatlı təhsil, təlim, elmi tədqiqat, mədəni-maarif, rabitə, tikinti-istismar, maddi-texniki təminat, tibb, redaksiya-nəşriyyat, məlumat-hesablama müəssisələri və s.)” sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 may 2018-ci il*

## Azərbaycan Respublikası Hökuməti ilə Səudiyyə Ərəbistanı Krallığı Hökuməti arasında cinayətkarlığa qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında Protokolun təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Hökuməti ilə Səudiyyə Ərəbistanı Krallığı Hökuməti arasında cinayətkarlığa qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında 2018-ci il fevralın 19-da Ər-Riyad şəhərində imzalanmış Protokol təsdiq edilsin.

2. Bu fərmanın 1-ci hissəsində göstərilən Protokol qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Protokolun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Səudiyyə Ərəbistanı Krallığı Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 may 2018-ci il*

## *<u>Elmar MƏMMƏDYAROV:</u>* “Azərbaycan Fələstin məsələsinin ədalətli həllinə töhfə verməyə hazırdır”

Azərbaycan həmişə olduğu kimi, Fələstin məsələsinin ədalətli həllinə töhfə verməyə hazırdır. Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu sözləri Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov mayın 18-də İslam Əməkdaşlıq Təşkilatının (İƏT) İstanbulda keçirilən fövqəladə sammitindəki çıxışı zamanı bildirib.




Nazir qeyd edib ki, 60-dan çox fələstinlinin öldürülməsi və 2000 insanın yaralanması qəbuledilməzdir. Biz, üzv dövlətlər və İƏT olaraq qan tökülməsini dayandırmaq və qınamaq üçün daha çox səylər ortaya qoymalıyıq. Azərbaycan həmişə olduğu kimi, bu məsələnin ədalətli həllinə töhfə verməyə hazırdır. Biz bir daha tam həmrəyliyimizi və Fələstin məsələsinin ədalətli və hərtərəfli həlli üçün dəstəyimizi bildiririk. Fələstin-İsrail münaqişəsinin sülh yolu ilə həlli Şərqi Yerusəlimin Fələstin Dövlətinin paytaxtı olmaqla “iki dövlət prinsipi”nə əsaslanmalıdır.

Bildirilib ki, ABŞ Prezidentinin Yerusəlim şəhərini İsrailin paytaxtı kimi tanıması və ABŞ səfirliyinin bu şəhərə köçürülməsi ilə bağlı qərarı beynəlxalq hüquqa və BMT Təhlükəsizlik Şurasının 478 saylı (1980) qətnaməsinə zidd bir addımdır.

Nazir deyib: “Göründüyü kimi, çoxsaylı xəbərdarlıqlara baxmayaraq, bu addım Fələstin-İsrail münaqişəsinin ədalətli və davamlı həllinə nail olmaq üçün ümidləri puç etdi və humanitar fəlakətə yol açdı”.

Elmar Məmmədyarov qeyd edib ki, 2013-cü ildə Azərbaycan Fələstinə yardım məqsədilə İslam Maliyyə Təhlükəsizlik Şəbəkəsinin təsis Konfransına və Yerusəlim şəhərinin inkişafına dəstək məqsədilə donor konfransına evsahibliyi etdi. 2017-ci ildə Azərbaycanda “İslam həmrəyliyi ili” çərçivəsində biz BMT-nin Fələstin xalqının ayrılmaz hüquqlarının həyata keçirilməsinə dair Komitəsinin himayəsi və İƏT-in dəstəyi ilə Yerusəlim məsələsinə dair beynəlxalq konfransa evsahibliyi etdik. Həmin konfrans Əl-Əqsa məscidinin bağlanmasını və orada dindarlara qarşı məhdudiyyətləri qınayan kommünikenin qəbulu ilə nəticələnmişdi.

“Bildiyiniz kimi, keçən ay Qoşulmama Hərəkatı “Davamlı inkişaf naminə beynəlxalq sülh və təhlükəsizliyin təşviq edilməsi” mövzusunda nazirlər konfransına evsahibliyi edib. Bu tədbir çərçivəsində Qoşulmama Hərəkatının Fələstin məsələsi üzrə Nazirlər Komitəsinin toplantısı təşkil olundu. Yekun Bakı Bəyanatında zorakılığa tamamilə son qoyulması üçün ciddi kollektiv səylərin göstərilməsinə çağırışlar edildi.

Həmçinin Fələstin qurumlarının xahişi əsasında Azərbaycan 2018-ci ilin sonunda Fələstinin Asiya ölkələrində akkreditə olunan səfirlərinin illik toplantısının təşkilinə köməklik göstərməyi planlaşdırır”, - deyə nazir vurğulayıb.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanı tam dəstəklədiyinə görə İƏT-ə və onun üzv dövlətlərinə minnətdarlığını çatdıran Elmar Məmmədyarov bildirib ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə və İƏT də daxil olmaqla bir sıra beynəlxalq təşkilatların qərarlarına baxmayaraq, 25 ildən artıqdır Ermənistan Azərbaycan torpaqlarının iyirmi faizini yerli müsəlman əhali və İslam mədəniyyəti üçün dəhşətli humanitar nəticələrə səbəb olan qeyri-qanuni hərbi işğalda saxlamaqdadır.

## Bu il kənd bələdiyyələri tərəfindən 4 mindən çox layihə icra olunacaq

### *Kürdəmirdə Azərbaycan Kənd Bələdiyyələrinin Milli Assosiasiyasının ümumi yığıncağı keçirilib*

Ötən il Azərbaycanda kənd bələdiyyələrinin gəlirləri 12,1 faiz artıb, sosial sifarişli layihələrin icrası sürətlənib. Hesabat ilində Azərbaycan Kənd Bələdiyyələrinin Milli Assosiasiyasının “Bir bələdiyyə - azı bir layihə” təşəbbüsü çərçivəsində kənd bələdiyyələri tərəfindən 21 istiqamət üzrə ümumi dəyəri 5,3 milyon manat olan 3372 layihə icra edilib. Cari ildə 4 mindən çox layihənin icrası nəzərdə tutulur. AZƏRTAC xəbər verir ki, bu barədə mayın 19-da Kürdəmir rayon Heydər Əliyev Mərkəzində keçirilən Azərbaycan Kənd Bələdiyyələrinin Milli Assosiasiyasının ümumi yığıncağında danışılıb.

Yığıncaqda Prezident Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin məsul işçiləri, Milli Məclisin Regional məsələlər komitəsinin üzvləri, Ədliyyə Nazirliyinin Bələdiyyələrlə iş Mərkəzinin, Azərbaycan Qəsəbə və Şəhər Bələdiyyələrinin Milli assosiasiyalarının, qeyri-hökumət təşkilatlarının təmsilçiləri və KİV nümayəndələri iştirak ediblər.

Tədbir iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin Kürdəmir şəhərindəki abidəsini ziyarət edərək önünə gül dəstələri düzüblər.

Azərbaycanın 1227 kənd bələdiyyəsindən və Naxçıvan Muxtar Respublikasının Kənd Bələdiyyələrinin Assosiasiyasından seçilmiş 247 nəfər nümayəndənin iştirakı ilə keçirilən yığıncaqda Azərbaycan Kənd Bələdiyyələrinin Milli Assosiasiyasının 2017-ci ildə fəaliyyəti haqqında hesabatı, Nəzarət-təftiş komissiyasının hesabatı, Milli Assosiasiyasının 2018-ci il üçün büdcəsi, eləcə də təşkilati məsələlər müzakirə olunub.

Azərbaycan Kənd Bələdiyyələrinin Milli Assosiasiyasının sədri Əli Mehdiyev hesabat məruzəsi ilə çıxış edərək bildirib ki, ölkəmizdə uğurla reallaşdırılan dövlət siyasəti bələdiyyə orqanlarının ictimai-siyasi həyatımıza daha yaxından inteqrasiyasına səbəb olub, vətəndaşların yerli özünüidarəetmədə fəallığı artıb. Hesabat ilində Milli Məclisin Regional məsələlər komitəsi, Ədliyyə Nazirliyinin Bələdiyyələrlə iş Mərkəzi, həmçinin ölkənin QHT sektoru ilə qarşılıqlı faydalı əməkdaşlıq davam etdirilib, yerli özünüidarəetmənin qanunvericilik bazası təkmilləşdirilib.

“Milli assosiasiyalarla qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri ona hesablanıb ki, kənd bələdiyyələri müasir dövrün çağırışlarına daha yaxından inteqrasiya olunsun, ərazidə prioritet seçilən sosial məsələlər daha tez həllini tapsın. Bu baxımdan hesabat ilində görülmüş işlərin bir hissəsi yerli özünüidarəetmənin təkmilləşdirilməsi ilə bağlı olub. Milli assosiasiyaların təşəbbüsü və tövsiyəsi əsasında hər il kənd bələdiyyələrində keçirilən “Yerli Demokratiya Həftə”si çərçivəsində bələdiyyə binalarının qarşısında, əhalinin sıx toplaşdığı yerlərdə müxtəlif şüarların asılması, sosial şəbəkələr və xəbər saytlarında əvvəlcədən yerləşdirilən elanlar həftə tədbirlərinin kütləviliyini xeyli artırıb. Belə tədbirlərdə kənd bələdiyyələrində keçirilən 5 min 832 görüşdə 415 min 659 nəfər iştirak edib, bələdiyyələrdə 35 min 143 nəfər vətəndaşın qəbulu aparılıb, yeni təklif və təşəbbüslər irəli sürülüb”, - deyə Əli Mehdiyev bildirib.

Qeyd olunub ki, bələdiyyələrin iqtisadi potensialının artırılması sahəsində fəaliyyətin əlaqələndirilməsi, İKT üzərindən “Bələdiyyələrin Avtomatlaşdırılmış Məlumat Sistemi” üzrə tədiyəçilərin uçotunun qurulması işləri davam etdirilib, vergi və ödənişlərin toplanmasında müsbət dinamika yaranıb. Hesabat dövründə Milli Assosiasiya yerli özünüidarəetmə məsələləri ilə bağlı Avropa Şurası Yerli və Regional Hakimiyyətlər Konqresi, beynəlxalq qurumlar və qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq əlaqələrini davam etdirib.

Yığıncaqda Prezident Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin bələdiyyələrlə iş sektorunun müdiri Emin Eyvazov çıxış edərək dövlətin bələdiyyələrə dəstəyindən, ötən dövrdə yerli özünüidarəetmənin inkişafından, qazanılan nailiyyətlərdən, Milli Assosiasiya vasitəsilə həyata keçirilən çoxsaylı layihələrdən danışıb.

Kənd bələdiyyələrinin fəallığının artırılmasının vacibliyindən söz açan E.Eyvazov bələdiyyə sədrlərinə daha fəal olmağı, yeni təşəbbüslərlə çıxış etməyi tövsiyə edib. “Son illər yerli vergi və ödənişlərin yığım səviyyəsində müsbət dinamika müşahidə olunur. Lakin, buna baxmayaraq, bələdiyyələrin kifayət qədər maliyyə potensialı olduğu halda, yerli vergi və ödənişlər tam toplanılmır”, - deyən Prezident Administrasiyasının sektor müdiri bildirib ki, vergi və ödənişlərin tam həcmdə yığılmasının təmin olunması üçün, ilk növbədə, bələdiyyələrdə vergiödəyicilərinin, vergitutma və ödəniş obyektlərinin uçota alınması təmin edilməlidir. Kənd bələdiyyələrinə xırda istehsal və xidmət sahələri yaratmaqla öz büdcələrini formalaşdırmağı və toplanan vəsaiti sosial layihələrin icrasına yönəltməyi tövsiyə edən E.Eyvazov dövlət başçısının regionlarda keçirdiyi müşavirələrdə verdiyi tapşırıqların icrasında bələdiyyələrin də rolunun artırılmasının önəmini diqqətə çatdırıb. Qeyd edib ki, bu sahədə bələdiyyələrin işində dönüş yaradılmalıdır.

Yığıncaqda Milli Məclisin deputatı Rüstəm Xəlilov, Ədliyyə Nazirliyinin Bələdiyyələrlə iş Mərkəzinin İnzibati nəzarət idarəsinin rəisi Ruslan Osmanlı çıxış edərək bələdiyyələrin ötən dövr ərzindəki fəaliyyətini qənaətbəxş sayıblar. Onlar qanunvericilikdə edilən dəyişikliklərin önəmindən, bu dəyişikliklərin yerli özünüidarə orqanlarının inkişafına müsbət təsirindən, bələdiyyələrin fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində görülən tədbirlərdən danışıblar. Azərbaycan bələdiyyə sisteminin effektivliyinin və bələdiyyələrin fəallığının artırılması istiqamətində görüləcək işlərin əhəmiyyəti vurğulanıb, kənd bələdiyyələrinin sədrlərinə müvafiq tövsiyələr verilib. Çıxışlarda bələdiyyələrlə qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin qurulmasının vacibliyi diqqətə çatdırılıb.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Naxçıvan Kənd Bələdiyyələri Assosiasiyasının sədri, Ordubadın Dəstə bələdiyyəsinin sədri, Azərbaycan Kənd Bələdiyyələrinin Milli Assosiasiyasının sədr müavini Tofiq Babayev, Kürdəmirin Pirili bələdiyyəsinin sədri Ziya Kərimov, Astaranın Pensər bələdiyyəsinin sədri Nərgiz Əhmədova, Qazaxın Daş Salahlı bələdiyyəsinin sədri Mahir Quliyev, Qusarın Quxuroba bələdiyyəsinin sədri Namiq İsmayılov, Qax rayonunun Qaxbaş bələdiyyəsinin sədri Rəşad Məmmədov ötən bir ildə gördükləri işlər barədə məlumat veriblər. Eyni zamanda, yerli əhəmiyyətli məsələlərin həllində əhalinin iştirakı, bələdiyyələrin maliyyə imkanlarının artırılması, bələdiyyə-vətəndaş əlaqələrinin möhkəmləndirilməsində bələdiyyə qulluqçularının peşəkarlığı, bələdiyyələrin fəaliyyətində aşkarlığın və şəffaflığın təmin olunması ilə bağlı çıxışlar edilib. Çıxışlarda bələdiyyələrin fəaliyyətində şəffaflığın daha da artırılmasının zəruriliyi vurğulanıb, yerli vergi və ödənişlərin yığılmasında mövcud çətinliklərin aradan qaldırılması yollarına dair təkliflər səsləndirilib.

Yığıncaqda nəzarət-təftiş komissiyasının hesabatı dinlənilib, cari ilin büdcəsi təsdiq edilib və təşkilati məsələlərə baxılıb. Həmçinin bələdiyyələrin fəaliyyətində mövcud problemlər və onların həlli yolları, bələdiyyələrin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı təkliflər dinlənilib. Yığıncaqda özünüidarəetmə orqanlarının uğurlu fəaliyyət göstərmələri ilə əlaqədar bir sıra mühüm məsələlər də qaldırılıb.

Assosiasiyanın hesabat dövründəki fəaliyyəti qənaətbəxş sayılıb, müzakirə olunan məsələlər barədə müvafiq qərar qəbul olunub.

## Azərbaycanın daxili işlər orqanları - 100

# İstiqlalın canlı sipərləri

*Əvvəli 1-ci səh.*

Bu ənənələr XIX əsrin birinci yarısında, Azərbaycanın Rusiya imperiyasının tərkibində olduğu dövrdə formalaşmağa başlamış, 1840-cı ildən müvafiq qurumlar yaradılmışdır. Milli polis orqanlarımızın təsis olunması isə müsəlman Şərqinin ilk demokratik respublikası kimi Vətənin istiqlalını bütün dünyaya bəyan edən Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlıdır. Mayın 28-də Cümhuriyyət elan olundu, Fətəli xan Xoyskinin başçılığı ilə təşkil edilmiş ilk milli hökumətin əsas addımlarından biri elə səhəri gün - mayın 29-da Azərbaycanın ilk Daxili İşlər Nazirliyini yaratmaqdan ibarət oldu. Bu sahəyə o qədər mühüm məsələ kimi baxılırdı ki, Fətəli xan Xoyski həm Nazirlər Şurasının sədri, həm də daxili işlər naziri vəzifəsini yerinə yetirirdi. Sonra ayrı-ayrı vaxtlarda Behbud xan Cavanşir, Xəlil bəy Xasməmmədov, Nəsib bəy Yusifbəyli, Məmmədhəsən Hacınski və Mustafa bəy Vəkilov da Azərbaycanın daxili işlər naziri vəzifəsini icra etdilər. Bu şəxslərin hamısı zəmanələrinin görkəmli ictimai-siyasi xadimləri, cəmiyyətdə böyük nüfuz qazanmış ziyalılar, əsl vətənpərvərlər idi!

Milli hökumətin 24 iyun 1918-ci il tarixli 178 nömrəli qərarına əsasən, 1918-ci il iyulun 2-də Yelizavetpol (Gəncə) quberniyasında ilk milli polis orqanları yaradılaraq ştatları təsdiqləndi.

Və beləliklə, Azərbaycan polisi çox çətin tarixi sınaqlar dövründə şərəfli missiyasının icrasına başladı...

Cənubi Qafqaz respublikaları içərisində Azərbaycan yeganə dövlət idi ki, onun təsis etdiyi polis həm xalqın azadlığını və dövlətin müstəqilliyini müdafiə edir, həm də separatizmə qarşı əzmlə mübarizə aparırdı. Ümumən həmin dövrdə polis Azərbaycan dövlətinin formalaşmasında, milli maraqların qorunmasında mühüm rol oynayır, müstəqilliyin müdafiəsi uğrunda mübarizənin ön sıralarında gedirdi.

Xalq Cümhuriyyətinin ömrü cəmi 23 ay çəksə də, o ayların ruhu, cəmiyyət qarşısında müəyyən edilmiş öhdəliklər Azərbaycan polisini tərk etmədi. Bu, bir əsrlik dövrün sovet dönəmində xalqa və dövlətə xidmətin milis, müstəqillik illərində isə polis adı altında yerinə yetirilməsi, əslində, yalnız adı dəyişdi. Missiyanın mahiyyəti, zabit mundirində daşınan dövlətçilik atributlarımıza sadiqlik, Azərbaycan amalı dəyişməz qaldı. Onlar bu amala, milli ideyalara, dəyərlərə, zabit şərəfinə nə qədər bağlı olduqlarını hələ milis adı altında fəaliyyət göstərdikləri sovet dövründə də dəfələrlə sübuta yetirdilər.

Azərbaycan polisinin fəaliyyətində köklü islahatların yarandığı ilk "qızıl dövr" də məhz Heydər Əliyevin ötən əsrin 70-80-ci illərdəki rəhbərliyi altında gerçəkləşdi. "Milis" adını daşıyan daxili işlər orqanlarının mənən saflaşdırılmasına, əməkdaşların vətənpərvərlik, milli-mənəvi dəyərlər əsasında peşəkarlaşdırılmasına və digər bu kimi mühüm addımlara məhz ümummilli liderimiz böyük uzaqgörənliklə nail oldu və bu strukturlarda milliləşmə prosesi böyük vüsətlə getdi.

Cəmiyyətdə hüquqi dəyərlər bir günə, beş günə formalaşmır. İnsanların onları əxz etməsi, öz həyatını bu dəyərlərə uyğunlaşdırması, cinayətə və cinayətkarlığa barışmaz ruhda köklənməsi, vətəndaş olaraq öz hüquq və məsuliyyətini anlamasından ötrü onilliklər lazımdır. Bu mənada, ölkəmizdə nizamlı bir cəmiyyətin yaranmasında, qanunlara hörmət hissinin formalaşmasında, cinayətkarlığın qarşısının alınmasında Azərbaycan hüquq-mühafizə orqanlarının sovet dövründə gördüyü işlər, özü haqqında formalaşdırdığı ictimai obraz çox böyük rol oynamışdı.

❖ ❖ ❖

Ötən əsrin 80-ci illərinin sonlarına doğru Azərbaycanın müstəqilliyinə doğru çətin və şərəfli yolda da onlar xalqla birlikdə idilər...

Ermənilərin Azərbaycan torpaqlarına qarşı işğalçı hərəkətlərinə etiraz olaraq meydanlara axışan və bu axınla tədricən böyük bir xalq hərəkatı formalaşdıran insanlarımızın vəhdətində, cəsarətində əslində, qəlbi hərəkatla döyünən asayiş keşikçilərimizin böyük payı vardı. Çünki daxili işlər orqanlarındakı əsl vətənpərvərlər sovet rejiminin sərt qaydalarına rəğmən, o günlərdə imperiyanın deyil, məhz xalqın keşiyində dayanmışdılar.

Vətəndaşlar onları da öz aralarında görürdülər. Vətənpərvər milislər xalqı, onun mübarizə əzmini qorumağa, bu ümumxalq qətiyyətinə dəstək verməyə, onun öz milli hədəflərinə çatmasına hər vəhclə kömək göstərməyə can atırdılar.

1990-cı ilin Qanlı yanvar gecəsi xalqımıza qarşı törədilmiş qətliam zamanı həlak olanlar sırasında daxili işlər orqanlarının əməkdaşları da vardı.

Erməni işğalçılarının təxribat əməllərinin qarşısını almaqdan ötrü ilk günlərdən ön cəbhəyə yollanan, Azərbaycanın ərazi bütövlüyü uğrunda vuruşan, şəhidlər verən, yaralanan birinci qüvvə yenə onlar idi.

Onda hələ nizami ordumuz formalaşmamışdı. Bütün yük milis dəstələrinin üzərinə düşürdü və onlar qəlblərindəki Azərbaycan sevgisini bu müharibədə öz canları-qanları ilə sübuta yetirirdilər.

Vətən savaşında 1695 əməkdaş və hərbi qulluqçu şəhidlik zirvəsinə ucaldı, 1710 nəfər isə yaralandı. Göstərdikləri şücaət və igidliklərə görə 67 nəfər "Milli Qəhrəman" adına, 1143 nəfər orden və medallara layiq görüldü.

Bu rəqəmlər yalnız statistika deyil, əslində, 100 yaşlı polisimizin qürur, şərəf salnaməsinin ən parlaq səhifələrindən biridir...







❖ ❖ ❖

Müstəqilliyimizin ilk illərində üzləşdiyimiz ağır siyasi, iqtisadi, sosial təlatümlər Azərbaycan polisi üçün xüsusilə çətin keçdi. Daxili işlər orqanları ölkəmizin müstəqillik dönəminə nizami bir struktur kimi, sovet dövründə formalaşmış zəngin təcrübə, təşkilati imkanlar və peşəkar xidmət ənənələri ilə daxil olmuşdu. Azərbaycanın müstəqilliyini möhkəmləndirmək, xalqın əldə etdiyi bu misilsiz tarixi dəyəri özbaşınalıq kimi başa düşənlərin yaratdıqları anarxiya, xaos mühitini aradan qaldırmaqdan ötrü ilk iş bu imkanlardan, peşəkarların təcrübəsindən məqsədyönlü şəkildə istifadə etməkdən ibarət olmalı idi.

Bəs əslində, nə baş verdi?!

Yenicə qazandığı müstəqilliyi Azərbaycanın əlindən almaq istəyənlər yaxşı anlayırdılar ki, ölkəni xaosa sürükləməkdən ötrü ən vacib addım daxili işlər orqanlarını parçalamaqdan, bu sistemdə əsas vəzifələrə milli dövlətin deyil, onların tapşırıqlarını yerinə yetirən öz adamlarını yerləşdirməkdən ibarət olmalıdır. İnsafən, bunu pis "bacarmamışdılar".

Müstəqilliyin ilk illərində ölkə rəhbərliyində bir-birini əvəz edən təsadüfi iqtidarların dövrü daxili işlər orqanlarındakı peşəkarlar üçün tam bir fəlakət mənzərəsi yaratmışdı. Onlar yaşananların, yol verilən səriştəsizliklərin Azərbaycanı hansı təhlükələrə doğru apardığını öz təcrübələri işığında aydın görürdülər. Vətənpərvərliyin, zabit şərəfinin, peşəkarlıq vicdanının diktəsi ilə nələrsə etməyə can atırdılar. Amma əmr sahiblərinin bu dəyərlərdən tamamilə uzaq adamlar olması ortada heç bir imkan buraxmırdı.

Cəmiyyəti ölkədaxili çəkişmələrdən qorumağa görə məsuliyyət daşıyan, ictimai həyatda düzən yaratmalı olan polis özü təxribatçıların əli ilə siyasi burulğanların tam mərkəzinə sürüklənmişdi. Özü də ölkədaxili çəkişmələrdə tərəf kimi iştirak edirdi.

Durum son dərəcə ziddiyyətli idi: bu sistemdə çalışanların əksəriyyəti vəzifə öhdəliklərindən irəli gələrək siyasi proseslərə qarışmadan yenə də əhalinin təhlükəsizliyini, ölkəmizin ərazi bütövlüyünü qoruyur, canı və qanı bahasına cinayətkarlığa qarşı mübarizə aparır, bir qismi isə cinayətkarlarla əlbir şəkildə, dövlətin və müstəqilliyin əsaslarını baltalamağa can atırdı.

❖ ❖ ❖

Bir anlıq təsəvvürümüzə gətirək ki, 1992-1993-cü illərdə daxili işlər naziri vəzifəsi tutan şəxs həm də siyasi partiya sədri idi, öz firqə maraqları, siyasi iddiaları vardı. Üstəlik, həmin şəxs bu vəzifəyə gətirilənə qədər sosialist əmlakını dağıdanlara qarşı mübarizə qurumunda, yəni, o vaxt sadə insanlar arasında OBXSS kimi tanınan və yumşaq desək, o qədər də yaxşı ad çıxarmayan sistemdə ancaq bölmə rəisi vəzifəsinə qədər "yüksələ" bilmişdi. Və hər birimiz dəqiq bilirdik, sonrakı proseslər də aydın göstərdi ki, onun ucuz populuzminin arxasında idarəçilik qabiliyyəti, şəxsi heyətlə iş təcrübəsi, daxili işlər orqanlarında əsl peşəkarları dəyərləndirmək bacarığı tamamilə yox idi.

Onun birinci müavini vəzifəsinə tikinti briqadiri işləyən adam təyin edilmişdi. Bu kəslərin Naxçıvan polisinin başına keçirmək istədikləri adam isə işsiz idman müəllimi idi. Daxili İşlər Nazirliyinin Banditizmə və Terrorizmə qarşı Mübarizə İdarəsi kimi həmin dövr üçün son dərəcə mühüm strateji əhəmiyyət daşıyan sahəsi isə kinorejissora tapşırılmışdı.

Əlbəttə, bunları qələmə almaqla peşələr arasında müqayisə aparmaq, hansısa sənətə xələl gətirmək istəməzdik. Hər bir şərəfli peşənin öz dəyəri, faydaları var. Cəmiyyətə peşəkar polislər kimi öz sənətinin bilicisi olan tikinti mütəxəssisləri, müəllimlər, yaradıcı adamlar da gərəkdir. Amma hər kəsin məhz öz sahəsinin peşəkarı olmağa çalışması, hər işin öz ustasına tapşırılması, peşəkarların diletantlardan qorunması da mühüm şərtdir! Təsvir etdiyimiz dövrdə isə bunun tamam əksi baş verirdi! Bu sahədə xidmətə ömrünün illərini sərf etmiş peşəkar zabitlər polis sisteminə tamamilə yad olan adamların əmrlərini yerinə yetirmək məcburiyyətində qalmışdılar. Peşəkarların taleyinə naşılar qərar verirdilər...

Belə fürsətləri həmişə həssaslıqla "dəyərləndirməyi" bacaran peşəkar cinayətkarlar isə qızğın "iş başında" idilər. Rayon polis şöbə və idarələrinə təsadüfi adamların, bəzi hallarda isə hətta cinayətkar qruplaşmalarla əlbir olan ünsürlərin rəhbərlik etməsi onların meydanını genişləndirirdi.

Və bu faciəvi durumun qısa müddət ərzində yaratdığı nəticələri həmin dövrə aid əlahəzrət statistika çox aydın dillə təsvir edir. AXC-Müsavat cütlüyünün hakimiyyəti dövründə küçəyə çıxmağın belə təhlükəli olması həqiqətinin təkzibinə çalışanlar bəlkə bu rəqəmlərdən sonra ibrət götürərlər. Bunu necə inkar etmək olar ki, respublikada cinayətlərin sayı 1992-ci ildə 1991-ci ilə nisbətən 7 min, onların ağır növləri 3 min, o cümlədən qəsdən adamöldürmələr 200, mülkiyyət əleyhinə olanlar 6 min hadisə çoxalmışdı.

Əhalisinin sayı 7.207.000 nəfər olan Azərbaycanda hər yüz min nəfərə nisbətdə cinayətlərin sayı 307 fakt təşkil etməklə görünməmiş hal almışdı. Kriminogen durum kəskinləşmiş, ölkənin iqtisadiyyatı dağıdılaraq sərvətləri talan edilmişdi. Ən acınacaqlısı isə dövlətə və onun mühüm bir təsisatı kimi polisə inam azalması idi. Hüquq-mühafizə orqanlarındakı təsadüfi ünsürlərin yaramaz fəaliyyəti vətəndaşların bu sistemə etimadını yerlə bir etmişdi. İş o məqama çatmışdı ki, ayrı-ayrı yerlərdə insanlar aralarındakı hansısa məişət zəminli mübahisələrinin həlli üçün dövlətin hüquq-mühafizə orqanlarına deyil, cinayətkar ünsürlərə, kriminal avtoritetlərə müraciət edirdilər.

Təhsil səviyyəsi aşağı, dünyagörüşü məhdud bir qism insanın, xüsusilə sadəlövh yeniyetmələrin kriminal aləmə, onun tanınmış simalarına, "qayda-qanunlarına" bu gün də sezilən gizli marağı, əfsus ki, öz başlanğıcını məhz həmin təlatümlü dövrlərdən götürür və bu ziyanlı nəticələri tam aradan qaldırmaqdan ötrü insanların maarifləndirilməsinə hələ çox zəhmət çəkməliyik.

❖ ❖ ❖

...O illər Azərbaycanın daxili işlər orqanları üçün tarixi bir sınaq, taleyüklü məqam idi. Bir tərəfdə polisin şanlı ənənələrinə tamamilə yad əməllərə qoşulmuş kəslər, əks tərəfdə isə dövlətçiliyə sədaqəti, xidməti və peşə borcunu hər şeydən uca tutan şəxsi heyət dayanırdı.

Ölkəni üzləşdiyi fəlakətdən xilas etmək üçün 1993-cü ilin 15 iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyev isə cəmiyyətin hava və su kimi ehtiyac duyduğu sabitliyi bərqərar etmək üçün məhz sınaqlardan alnıaçıq çıxan, müstəqilliyin dəyərini dərk edən qüvvələrə arxalandı. Çox keçmədən də öz fəhmində yanılmadığına əmin oldu.

Heydər Əliyev zamanın sərt tufanlarının dağıdıb param-parça etdiyi hissələri bir-bir öz yerinə topladı, bu hissələrdən milli dövlətimizi bina etdi.

Və Azərbaycan polisi müstəqil Azərbaycan dövlətinə layiqli xidməti ilə bu binanın təməlində öz möhkəm, sarsılmaz, şərəfli yerini tutdu...

Onların uzun illərdən bəri topladıqları zəngin səriştə, eləcə də müstəqilliyin ilk illərində formalaşmış təcrübə, əvvəlki iqtidarların səhvlərindən, yanlışlıqlarından çıxarılan dərslər Heydər Əliyevin həyata keçirdiyi hüquqi dövlət quruculuğu prosesində, respublikada kriminogen durumun nəzarət altına alınmasında, asayişin, sabitliyin bərpası və qorunmasında çox mühüm rol oynadı.

❖ ❖ ❖

Azərbaycanda hərəsi bir firqəyə, xarici şəbəkəyə bağlı silahlı dəstələrin at oynatdığı, dövlətə barmaq silkələdiyi o ağır günlərdə bütün çətinlikləri, təhlükə və təhdidləri gözə alaraq daxili işlər orqanlarında köklü islahatlara start verməkdən ötrü bir ölkə rəhbəri ancaq Heydər Əliyev qədər qətiyyətə sahib olmalı idi.

Ulu öndər bütün maneələrə baxmayaraq bu sistemin sağlamlaşdırılmasına başladı. 1994-cü ilin 29 aprel günü keçirilmiş müşavirə Azərbaycan daxili işlər orqanlarının həyatında yeni bir mərhələnin əsasını qoydu.

Heydər Əliyevin həmin müşavirədəki tarixi çıxışında müəyyən etdiyi vəzifələr ulu öndərin şəxsində zamanın, yeni dövrün özünün Azərbaycan polisinə ünvanlanmış çağırışı idi...

Heydər Əliyev bu tədbirdə təkcə konkret vəzifələr müəyyənləşdirmədi. Daxili İşlər Nazirliyinin rəhbərliyində dəyişiklik apararaq bu vəzifələri layiqincə yerinə yetirə biləcəyinə ümid bəslədiyi şəxsi - Ramil Usubovu Azərbaycan Respublikasının daxili işlər naziri təyin etdi.

İnsan sərrafı olan Heydər Əliyevin bu seçimi yeni nazirin Azərbaycan dövlətçiliyinə sədaqətini polis orqanlarındakı uzunmüddətli fəaliyyəti dövründə sübuta yetirməsi, zəngin təcrübəsi, yüksək peşəkarlığı kimi mühüm meyarlara əsaslanırdı. Ümummilli lider bu qərarı şəxsi heyətin önündə elan edərkən demişdi: "Ramil Usubova tam inanır, prezident kimi ona etimad göstərirəm və bir daha hamınızdan tələb edirəm ki, ona kömək göstərəsiniz. Daxili İşlər Nazirliyi xüsusi bir orqan, bilavasitə prezidentin tabeliyində olan orqandır. Heç bir kənar vəzifəli şəxslərin bu nazirliyin işinə qarışmağa ixtiyarı yoxdur. Bu başdan xəbərdarlıq edirəm ki, yeni təyin edilmiş nazirin işinə heç kəs mane olmasın, heç kəs öz şəxsi məqsədlərinə çatmaq üçün orada cürbəcür işlərlə məşğul olmasın və hər kəs yeni nazirə kömək etməyə çalışsın. Mən naziri daim müdafiə edəcək, nazirliyin bütün məsələlərinə baxaraq onları şəxsən özüm həll edəcəyəm. Nazirə səlahiyyət verirəm ki, orada vəziyyəti dəyişdirmək üçün lazımi tədbirlər görsün. Mən də onun təkliflərini müdafiə edəcəyəm. Ancaq xəbərdarlıq edirəm, kim buna mane olarsa, bu işləri pozmağa cəhd göstərərsə, onlara qarşı çox ciddi tədbirlər görüləcək və mən heç kəsi bağışlamayacağam".

❖ ❖ ❖

Dövlət başçısının yeni nazirdən gözləntiləri çox qısa müddətdə özünü doğrultdu. Polis orqanlarında ciddi dəyişikliklər baş verdi, ən əsası bu struktur yuxarıdan aşağıya doğru daxilən saflaşdırıldı, vəzifə andına, məsuliyyətinə sədaqət əsas amilə çevrildi. Nəticə etibarilə ölkədə ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizə sahəsində ilk mühüm nailiyyətlər əldə edildi. Müşavirədən qısa müddət sonra Heydər Əliyevin imzaladığı "Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında" 1994-cü il 9 avqust tarixli Fərmanla respublikanın hüquq-mühafizə orqanlarının, o cümlədən polisin fəaliyyətinin əsas istiqamətləri müəyyənləşdirildi. Mütəşəkkil cinayətkarlıqla mübarizənin təşkilati-hüquqi bazasının, bu istiqamətdə aparılan işlərin əsasları formalaşdırıldı.

Respublikada fövqəladə vəziyyət ləğv olundu, bir müddət əvvələ qədər axşamlar tamamilə boş qalan Bakı küçələri öz qələbəlik məcrasına qayıtdı. Həyatı öz axarına düşmüş insanlar ictimai asayişi, bazar iqtisadiyyatı yoluna yenicə qədəm qoyan ölkədəki inkişaf mühitini, qanunun aliliyini qorumaqdan ötrü daxili işlər orqanlarının göstərdiyi qətiyyəti, fədakarlığı gördükcə cəmiyyətdə polisin nüfuzu yenidən yüksəldi, onlara inam gücləndi, şəxsi heyətin peşəkarlığı artdı, cinayətkarlar bu güc qarşısında yavaş-yavaş geri çəkilməyə başladılar.

Amma cinayətə, özü də dövləti cinayətə meyilli şəxslər təkcə cəmiyyətdə deyildi ki... Belələri qarmaqarışıqlıq dövründə daxili işlər orqanlarının divarları arasında da özlərinə yuva qura bilmişdilər.

❖ ❖ ❖

1994-cü ilin oktyabr və 1995-ci ilin mart ayında baş verən dövlət çevrilişi cəhdləri zamanı daxili işlər orqanlarının şəxsi heyəti arasında birbaşa xidməti vəzifəsini unudub milli mənafeyə zidd siyasətə qurşanan, ekstremal vəziyyətdə mənəviyyatsızlıq göstərib dövlətə xəyanət edən, gözləmə mövqeyi tutan əməkdaşların mövcudluğu da üzə çıxdı. Onların əksəriyyəti daxili işlər orqanlarına AXC-Müsavat iqtidarı dövründə gəlmiş və yüksək vəzifələr tutmuş şəxslər idi .

Milli dövlətçiliyimizə qarşı yönələn təhdidlər, bu fonda baş verən qorxulu hadisələr polisin sıralarında təmizləmə aparılması üçün təxirəsalınmaz tədbirlər görülməsini tələb edirdi. Belə də oldu. Polis adına ləkə gətirən şəxslər daxili işlər orqanlarından uzaqlaşdırıldı, beləliklə, bu sistem Azərbaycan polisinin şərəfli adına xələl gətirən kəslərdən təmizləndi.

Dövlət çevrilişi cəhdlərinin qarşısının alınması ilə yanaşı, daxili işlər orqanları kriminogen vəziyyətə nəzarətin möhkəmləndirilməsi, müharibə dövründə əhalidə tapılmış qanunsuz silahların yığılması sahəsində də ciddi nəticələr əldə etdi. O ağır illərdə ulu öndər Heydər Əliyev müstəqil dövlətə sədaqətli xidməti hər şeydən uca tutan Azərbaycan polisinin formalaşmasının möhkəm təməlini qoydu. Məhz bu təməl üzərində sağlamlaşan, daha da mətinləşən polisimiz az vaxt ərzində ölkəmizin regionda sabitlik adasına çevrilməsinə böyük töhfələr verdi.

1992-ci illə müqayisədə 2002-ci ildə ölkədə qeydə alınan cinayətlərin açılması 67 faizdən 94,8 faizə yüksəldi, ümumi cinayətlərin sayı 30,9 faiz, o cümlədən qəsdən adamöldürmələr 2,7 dəfə, quldurluq və soyğunçuluqlar 3,7 dəfə, oğurluqlar 5,2 dəfə, odlu silahın tətbiqi ilə törədilən cinayətlər 7,2 dəfə, nəqliyyat vasitələrinin oğurluğu 25 dəfə, habelə bağlı qalmış cinayətlər 13 dəfə azaldı. 10 il ərzində daxili işlər orqanları tərəfindən əllərdə qanunsuz saxlanılan 30 mindən artıq silah yığıldı. Hər il orta hesabla qrup halında fəaliyyət göstərən 1000-dən artıq cinayətkar dəstə zərərsizləşdirildi.





❖ ❖ ❖

Könül istərdi ki, nə zamansa Azərbaycanda onların fəaliyyətinə, fədakar əməyinə ümumiyyətlə, ehtiyac qalmasın. İnsanlarımız cinayətlərdən, hüquq pozuntularından çəkinsinlər, polisin hər hansı nəzarəti, müdaxiləsi olmadan da qayda-qanunlara dəqiqliklə riayət etsinlər. Cəmiyyət üzvlərinin özlərindən gələn azadlıq, hüquq və məsuliyyət hissi ictimai həyatımızda ideal birgəyaşayış modeli formalaşdırsın.

Bəlkə də hələlik utopiya kimi görünür, deyilmi?! Amma əgər dərin təhsil, mədəni davranış, başqalarına anlayış göstərmək, ən əsası isə öz məsuliyyətini anlamaq duyğusu hamı üçün vazkeçilməz dəyərə çevrilərsə, belə bir ideala qovuşmaq nədən mümkün olmasın ki?!

Əslində, bu ideala doğru aparan yol da ölkələrdə polis sisteminin inkişafından, xüsusilə uşaqların polisə hörmət ruhunda tərbiyə olunmasından keçir. Bir müddət əvvəl maraqlı bir tədqiqatın nəticələri elan olunmuşdu. Elmi araşdırmalar nəticəsində isbat edilmişdi ki, gənc nəslin polisə nifrət ruhunda yetişdiyi cəmiyyətlərdə cinayət halları da buna müvafiq artır. O toplumlarda ki, polisə inam, etibar yüksəkdir, orada cinayətlərin dinamikası getdikcə aşağı düşür.

Ulu öndər Heydər Əliyevin dövlətçilik irsini bu sahədə də davam etdirən Prezident İlham Əliyevin daxili işlər orqanlarında apardığı davamlı islahatların son məqsədi də elə məhz budur. İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə Daxili İşlər Nazirliyinin bütün strukturları müasir dünyanın çağırışlarına uyğun qurulub. Bu sistemə aid yüzlərlə yeni obyekt tikilib, yaxud yenidən qurulub. Cinayət hallarına qarşı mübarizə, ictimai asayişin təminatı məqsədilə minlərlə nəqliyyat vasitəsi, xüsusi texnika alınıb. Sahə polis məntəqələrindən baş idarələrədək bütün inzibati xidmət müəssisələri yenilənib, maddi-texniki təminatı yüksəldilib, informasiya texnologiyaları ilə təchizatı yüksək səviyyəyə çatdırılıb. Azərbaycan polisinin çevik, səmərəli fəaliyyətini, cinayətkarlığa qarşı mübarizənin effektiv təşkilini təmin edən mükəmməl qanunvericilik bazası formalaşdırılıb.

Ən mühümü isə bu gün daxili işlər orqanlarındakı mənəvi ruh sağlamdır, Daxili İşlər Nazirliyinin şəxsi heyətinin Vətən və xalq qarşısındakı tarixi məsuliyyət hissi çox yüksəkdir. Tam şəffaf əsaslarla polis orqanlarına qəbul edilən gənc, cüssəli, yüksək-mənəvi əxlaqi keyfiyyətlərə malik, müasir dünyagörüşlü gənclərlə bu orqanlar mütəmadi qaydada yenilənir. Eyni zamanda, Azərbaycan polisinin şərəfli adına xələl gətirəcək, cəmiyyətin öz polisinə inamını sarsıdacaq hər hansı neqativ hallara qarşı da kifayət qədər prinsipiallıq nümayiş etdirilir.

İş olan yerdə hansısa nöqsanların baş verməsi də təbiidir. Azərbaycan polisinin fəaliyyəti də nöqsanlardan xali deyil. Üstəlik, bu, elə bir fəaliyyət sahəsidir ki, qanunçuluğun keşiyində dayanarkən istər-istəməz kimlərinsə maraqlarının üzərinə getməli olursan. Kimlərsə, polisin guya ona qarşı hər hansı pozuntuya yol verməsi iddiası ilə ortaya atılır və sonradan bu iddiaların əsassızlığı bəlli olur. Yaxud belə pozuntulara həqiqətən, yol verildiyi aşkarlanır. Polisin fəaliyyətində də xidməti qəbahətə, nöqsana, bəzi çatışmazlıqlara rast gəlinir. Amma burada xüsusi diqqət ediləsi bir məqam var: bütün bu problemlər əksər hallarda məhz daxili işlər orqanlarının rəhbərliyi tərəfindən aşkarlanır. Onların qarşısının alınması üçün konkret addımlar atılır. Vəzifə öhdəliklərinə riayət etməyən əməkdaşlar cəzalandırılır, orqanlardan kənarlaşdırılır. Polis haqqında ictimai əhəmiyyət kəsb edən hətta ən epizodik rəy, fikir, iddia belə reaksiyasız qalmır. Məsələnin mahiyyəti aydınlaşdırılır, nəticə çıxarılır, günahkar cəzalandırılır, günahsız insan əsassız təzyiq və təqiblərdən qorunur.

Azərbaycan polisi fəaliyyətini bütün parametrlər üzrə yeni dövrün tələblərinə uyğun qurur. Dövlətə, xalqa bağlılıq, xidməti öhdəliklərə məsuliyyətli yanaşma daxili işlər orqanlarının ictimai nüfuzunu daim artırır.

Bu gün İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın tarixinin ən qüdrətli mərhələsinə yetişməsi, bütün dünyada sülh, mədəniyyətlərarası dialoq, tolerantlıq məkanı kimi tanınması, xarici turistlərin arxayınlıqla Vətənimizə üz tutması, gecədən səhərə qədər mərkəzi küçələrdən səngiməyən qələbəliklər, xoş insan mənzərələri bu inkişafı təmin etmiş bütün digər təsisatlarla yanaşı, həm də Azərbaycan polisinin fədakar fəaliyyətinin yaratdığı mənzərədir.

❖ ❖ ❖

Ətrafımızda od içində yanan, terrorizmə, dini radikalizmə, insan alverinə, silah, narkotik qaçaqmalçılığına və digər çeşidli cinayətlərə sürüklənən qan-qada dolu bir dünya var. Və bu dünyanın tam mərkəzində qərar tutmuş Azərbaycanı da oda yaxmaq istəyənlərin, bu torpaqları da saysız-hesabsız cinayətlərin məkanına çevirməyə can atanların sayı o qədər çoxdur ki...

Belələri sərhədlərdən kənarda da var, elə öz içimizdə də. Amma Prezidentin yürütdüyü mahir siyasət buna imkan tanımır, bu siyasətə uyğun olaraq sabitliyi, sakitliyi, cəmiyyətin hüzurunu göz bəbəyi kimi qoruyan Azərbaycan polisi belə cəhdlərə macal vermir.

Cəmi iki il əvvəl Nardaranda Azərbaycan dövlətinin milli maraqları uğrunda şəhid olmuş əməkdaşları hesabına...

Bir körpənin xilası üçün özünü oda atacaq qədər mətin iradəyə sahib polislər sayəsində...

Cinayətlə, cinayətkarlarla mübarizədə keçən yuxusuz gecələr bahasına...

Milli dövlətçiliyimizin, vətəndaş hüquq və azadlıqlarının etibarlı müdafiəçisinə, milli istiqlalımızın sipərinə çevrilmiş daxili işlər orqanlarımızın gəlib çatdığı bu səviyyə və öz tarixi boyu əldə etdiyi möhtəşəm uğurlar Cümhuriyyətimizin yaşıdı olan Azərbaycan polisinin bu 100 illik irsə həm də ən dəyərli töhfəsidir.

Kimdir polis?

Bizim asayişimiz üçün düşünmədən canlarını qurban verən qəhrəmanlardır…

Dövlətin təhlükəsizliyini qorumaq naminə canlarını sipər edən fədailərdir…

Müstəqilliyin əbədiliyi, ölkənin sabitliyi üçün terrorçunun üstünə yeriyən, cinayətkarı bir həmlədə zərərsizləşdirən igidlərdir…

Onlar həm də Vətən uğrunda şəhidlərdir…

Gecə-gündüz demədən, yağışa-borana, qızmar günəşə, sərt küləyə baxmadan yollarda hərəkəti tənzimləyən, küçələrdə rahatlığı təmin edən, bədnam ünsürlərə əl-qol açmaq imkanı verməyən əsl dostlardır…

Azərbaycanı dünyanın ən təhlükəsiz ölkələrindən birinə çevirməyə müvəffəq olan peşəkarlardır…

Məmləkətimizin vətənpərvərləridir, ər oğullarıdır…

100 illik istiqlalımızın 100 illik canlı sipərləridir…

**İxtiyar HÜSEYNLİ,**
***"Azərbaycan"***

# İlham Əliyev innovativ islahatların yeni mərhələsinə başladı

Əvvəli 1-ci səh.

## Sahibkarlar yaxın gələcəkdə islahatların müsbət təsirini görəcəklər

Bir vaxtlar kredit alan, elektrik enerjisi idxal edən bir ölkə bu gün neft-qaz ixracatçısına, kredit verən ölkəyə çevrilib. Təbii ki, bütün bunlar asan başa gəlməyib. Bu, Prezident İlham Əliyevin düşünülmüş, praqmatik siyasətinin, yeni iqtisadi konsepsiyasının bəhrəsidir.

Son 15 il ərzində ölkə iqtisadiyyatının 3,2 dəfə artması, valyuta ehtiyatlarının 24 dəfə artaraq 44,2 milyard dollara çatması, ölkə iqtisadiyyatına 231 milyard dollar investisiya yatırılması bunu bir daha təsdiqləyir.

Prezident İlham Əliyev isə qeyd etmişdir ki, məhz bu duruma görə Azərbaycan dünyada baş vermiş böhranlardan ən az itkilərlə çıxa bilib. Artıq bu böhranlar arxada qalıb və iqtisadi sabitlik, maliyyə sabitliyi, əlbəttə ki, həm investisiya iqliminə müsbət şərait yaradır, həm də biznes mühitini daha da yaxşılaşdırır: "Gələcək illərdə biznes mühitinin yaxşılaşdırılması istiqamətində əlavə addımlar atılacaq, iqtisadi islahatlar dərinləşəcək. İqtisadi sahədə tam şəffaflıq təmin edilməlidir, bütün xoşagəlməz hallara son qoyulmalıdır. Bütün iqtisadi qurumlar dünyanın inkişaf etmiş ölkələrində olan müsbət təcrübəni tətbiq etməlidirlər. Belə göstərişlər verilibdir. Əminəm ki, Azərbaycan vətəndaşları, sahibkarlar yaxın gələcəkdə bizim islahatlarımızın müsbət təsirini görəcəklər".

## Sahibkarların böyük hamisi daim onlara öz dəstəyini göstərir

Onu da xatırladaq ki, cənab İlham Əliyev ötən ay keçirilən inauqurasiya mərasimində də islahatlarla bağlı aidiyyəti qurumlara ciddi göstərişlər vermişdi. Bundan iki gün sonra Prezident idxal-ixrac əməliyyatlarına nəzarət sisteminin təkmilləşdirilməsi ilə əlaqədar məlum sərəncamı imzalamaqla irəli sürdüyü təkliflərin layihələrə çevrilərək gerçəkləşdiyini, verdiyi bütün vədlərin yerinə yetirildiyini bir daha təsdiqləmiş oldu. Sahibkarların böyük hamisi bir daha onlara öz dəstəyini nümayiş etdirdi.

Ümumiyyətlə, son 15 ildə sahibkarlara yaradılan imkanlar, verilən kreditlər onu deməyə əsas verir ki, artıq Azərbaycanda güclü sahibkarlar ordusu formalaşıb.

Həm biznes fəaliyyətinə başlama, həm də sahibkarların maliyyə vəsaitlərinə əlçatanlığının rahatlığı məqsədilə onlara 2 milyard manatdan çox vəsait verilib. Kənd təsərrüfatı sahəsində torpaq vergisi istisna olmaqla, bütün vergilər ləğv edilib, habelə sözügedən sahənin inkişafı üçün dövlət tərəfindən müxtəlif istehsal fəaliyyətində istifadə olunan resurslar güzəştlərlə və ödənişsiz verilir. İstehsal müəssisələri artıq ixrac bazarlarına üz tutur ki, bu istiqamətdə də Prezident İlham Əliyev tərəfindən ən innovativ islahatlar həyata keçirilir.

Belə ki, gömrük keçid məntəqələrində sənədləşmə prosesinin azaldılması, elektron yanaşmalar, vətəndaş məmur münasibətlərinin minimuma endirilməsi qeyd olunan genişmiqyaslı islahatların tərkib hissəsidir.

## Yeniliklər gömrük orqanlarında da yeni islahatları labüd edir

Əlbəttə ki, ticarətdə aparılan yeniliklər gömrük orqanlarında da yeni islahatları labüd edir. Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev jurnalistlərə verdiyi müsahibədə qeyd edib ki, gömrük-biznes münasibətlərində şəffaflığın daha da artırılması, büdcə gəlirlərinin formalaşdırılmasında yaxından iştirak edən gömrük orqanlarının infrastrukturunda mövcud olan çatışmazlıqların aradan qaldırılması, o cümlədən kadr islahatları ilə bağlı ciddi islahatlar aparılacaq.

Komitə sədri vurğulayıb ki, bundan sonra da cənab İlham Əliyevin apardığı islahatların dərinləşdirilməsi, daha da şaxələndirilməsi üzrə işlər davam etdiriləcək: "İnanıram ki, gələcəkdə bu sahədə uğurlarımız, ilk növbədə sahibkarların rahat idxal və ixrac əməliyyatları ilə məşğul olması üçün lazım olan bütün texniki imkanlardan istifadə edərək şəffaf mühitin formalaşması Azərbaycan gömrüyünün nüfuzunu daha da qaldıracaq", - deyə S.Mehdiyev söyləyib.

## Azərbaycan güclü siyasi iradəyə, böyük maliyyə resurslarına sahibdir

Prezident İlham Əliyevin dünya ölkələrinin qabaqcıl təcrübəsinin ölkəmizə gətirilməsi, müasir texnologiyaların tətbiqinə əsaslanan istehsal, emal, infrastruktur sahələrinin yaradılması istiqamətində verdiyi tapşırıqların icrasını təmin etmək məqsədilə sahibkarlığın təşviqi ilə bağlı sistemli və ardıcıl tədbirlər davam etdirilir.

Növbəti illərdə görüləcək işlər haqqında dövlətin çox aydın təsəvvürü, planları və proqramlarının olduğunu vurğulayan cənab İlham Əliyev Azərbaycanın daha da qüdrətli ölkəyə çevrilməsi üçün bütün istiqamətlər üzrə ciddi işlərin görüləcəyini bildirib: "Hər bir sahə üzrə bizim konkret proqramlarımız, planlarımız var. Həm beynəlxalq məsələlərlə, həm bölgələrimizin möhkəmləndirilməsi, siyasi-iqtisadi islahatların dərinləşməsi, sosial siyasət, ordu quruculuğu ilə bağlı bizim konkret proqramlarımız var. Güclü siyasi iradə, böyük maliyyə resurslarımız var. Biz bu maliyyə resurslarını öz əlimizlə yaratmışıq və biz indi öz hesabımıza yaşayırıq. Xalq-iqtidar birliyi var. Ona görə mən əminəm ki, bütün Azərbaycan xalqı və biz hamımız gələcəyə çox böyük nikbinliklə baxırıq. Hamımızın amalı ondan ibarətdir ki, ölkəmiz daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar".

Əminliklə söyləyə bilərik ki, cənab İlham Əliyevin yeni inkişaf konsepsiyası əsasında aparılan iqtisadi islahatlar Azərbaycan iqtisadiyyatının inkişafına mühüm töhfələrini verəcək.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Erməni lobbisi Azərbaycana qarşı yeni kampaniyaya başlayır

### *AŞ PA antiazərbaycançı şəbəkənin marionetinə çevrilmək yolundadır*

Ölkəmizin dinamik və davamlı inkişafı, onun beynəlxalq miqyasda sürətlə yüksələn nüfuzu xaricdəki antiazərbaycan dairələri üçün kabusa çevrilib. Bu xüsusda demokratiya, insan hüquqlarını siyasi alətə çevirən bəzi Qərb ölkələri və təsisatları özlərindəki çatışmazlığı, ksenofobiyanı görməzlikdən gələrək hədəf kimi Azərbaycanı seçməkdən usanmırlar. Çox mühüm siyasi, iqtisadi, idman, humanitar xarakterli tədbirlər təşkil edən zaman Qərbdəki antiazərbaycan qüvvələri fəallaşmağa başlayır, ölkəmizə qarşı təxribat mahiyyətli addımlar atılır.

## Qeyri-obyektivlik üzərində qurulmuş məkrli gedişlər

Avropa Şurası Parlament Assambleyasında (AŞ PA) Azərbaycana qarşı yenə ikili standartlar sərgilənməsi də qeyd edilənlərin daha bir təsdiqi sayıla bilər. Belə ki, AŞ PA-nın Müstəqil Araşdırma Qurumu təşkilat daxilində korrupsiya faktları ilə bağlı hesabat hazırlayıb. Hesabatda Azərbaycanla münasibətdə korrupsiya faktı ilə bağlı ölkəmizin AŞ PA-dakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidov, həmməruzəçilər Stefan Şennak, Sezar Florin Preda, keçmiş AŞ PA sədri və Azərbaycan üzrə sabiq həmməruzəçi Pedro Aqramunt, parlamentar Yordi Çukla və digərlərinin adı çəkilir.

Hesabat hələ hazırlanarkən onun qeyri-obyektivliyi avropalı parlamentarilər tərəfindən açıq etiraf olunurdu. Məsələn, Stefan Şennak Müstəqil Araşdırma Qurumunun korrupsiyaya dair hesabatının reallıqdan uzaq olduğunu bildirərək qeyd edirdi ki, bu hesabat onun obyektivlik və professionallığını şübhə altına alır: "Hamı bilir ki, məsuliyyətlərimə necə ölçülü yanaşıram. Mən bir kabus yaşadım. Adım korrupsiyaya dair hesabata daxil edilib. Biz hüququn aliliyi və insan haqları sahəsində problemlərin olduğu ölkələrlə işləyirik. Belə ölkələrlə işləyəndə ehtiyatlı olmaq lazımdır. Hesabatda adımı görəndə dəhşətə gəlirəm. Ola bilər ki, ilkin mətn yayımlanmazdan öncə daha bir araşdırma aparmaq lazım idi. Mən öz şərəfimi qorumaq və nüfuzumu geri qaytarmaq məcburiyyətində qalıram".

AŞ PA-dakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidov da hesabat meydana çıxarkən məsələyə sərt reaksiya vermişdi: "Ölkəmi utandırmaq üçün edilən hər bir cəhd, ölkəmi günahlandırmaq elə özü korrupsiyadır. Çünki Azərbaycan bu təşkilata demokratik dəyərlər naminə daxil olub. Əgər siz korrupsiya axtarırsınızsa, o zaman digər ölkələr haqqında, bu assambleyada iclas edənlər haqqında da düşünmək lazımdır. Niyə yalnız Azərbaycan? Axı bir ay bundan əvvəl bu iclas zalında siz Ermənistan xalqı tərəfindən korrupsiyaya görə qovulan Serj Sarkisyanı alqışlayırdınız. Ermənistanın çox demokratik ölkə olduğunu, Sarkisyanın isə Ermənistan xalqını bu təşkilatda təmsil edən demokrat olduğunu təsdiq edənlərdən soruşmaq istəyirəm - cənab Sarkisyan haradadır? Niyə siz özünüzə bu sualları vermək istəmirsiniz?"

Amma edilən bütün çağırışlara rəğmən, AŞ PA-dakı məkrli qüvvələr mövqelərindən geri çəkilməyərək qərəzli gedişlərini davam etdirib bu təşkilatın özünə də ciddi zərbə sayılan fəaliyyətdə bulundular. Belə ki, Müstəqil Araşdırma Qurumunun sırf yalan üzərində köklənən hesabatından sonra Səməd Seyidov, eləcə də Sezar Florin Preda, keçmiş AŞ PA sədri və keçmiş Azərbaycan üzrə həmməruzəçi Pedro Aqramunt, parlamentar Yordi Çukla barədə qərəzli, məkrli qərar qəbul edilib.

## Hər dəfə Azərbaycan hədəf seçilir

Baş verənlərdən aydın görünür ki, burada Azərbaycana qara yaxmaq, onu bu təşkilatın gerçək gündəmindən kənarda qoymaq məqsədi güdülür. Burada diqqət çəkən həm də odur ki, AŞ PA Ermənistanda vəziyyətin düzəlmədiyi bir məqamda məqsədli şəkildə Azərbaycanın üzərinə hücuma keçir. Dünyanın gözü qarşısında Ermənistanda qarşıdurmanın baş verdiyi, vətəndaşlara qarşı zor tətbiq edildiyi, hakimiyyətin devrildiyi, ölkənin faktiki olaraq idarəolunmaz hala gəlib çıxdığı bir vaxtda nədənsə AŞ PA-da Azərbaycan kimi sabit bir ölkəni hədəfə almaq üstün tutulur.

Bu, təbii ki, birmənalı olaraq qərəzdən, qeyri-obyektiv yanaşmadan, məqsədli şəkildə Azərbaycanı gözdən salmağa çalışmaqdan xəbər verir. Ekspertlər hesab edir ki, AŞ PA-nın bu hesabatı antiazərbaycan, islamofob və erməni pərəst qrupların ölkəmizə qarşı növbəti gedişidir.

AŞ PA-da çox yaxşı bilirlər ki, Azərbaycan Avropa Şurasına üzv olduğu müddət ərzində çox dəyərli demokratik islahatlar həyata keçirib və bu gün də həmin islahatlar davam edir. Lakin təəssüf ki, bunların heç biri nəzərə alınmır və Azərbaycana təzyiq göstərmək cəhdindən əl çəkilmir.

Azərbaycan Avropa Şurası qarşısında götürdüyü öhdəlikləri daim tam şəkildə yerinə yetirməyə çalışır və buna da nail olur. Amma Avropa Şurasının da Azərbaycan qarşısında böyük bir öhdəliyi var, bu da Azərbaycan ərazilərinin işğalının müəllifi olan digər üzv dövləti təcavüzə son qoymağa vadar etməkdir. Lakin buna gedilmir. Neçə illərdən bəri Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi və Dağlıq Qarabağ problemi ilə bağlı qurumun özünün qəbul etdiyi qətnamələrin real həllini tapması istiqamətində kəsərli addım atmadığı ikili münasibətlərdən xəbər verir.

## Qərəzkarlıq davam edir

AŞ PA-nın Müstəqil Araşdırma Qurumunun isə ölkəmizə yanaşmasında real faktlara əsaslanma yoxdur. Qeyd edək ki, məkrli dairələr bundan əvvəl Azərbaycan tərəfinin guya AŞ PA-nın sabiq sədri Pedro Aqramunta və digərlərinə rüşvət verməsi barədə də qurumda hay-küy qaldırılmışdı. Amma bu fakt ilk əvvəl İtaliya məhkəməsində təsdiqini tapmadı. Ardınca AŞ PA-da korrupsiya iddialarını araşdıran Müstəqil Kənar İstintaq Orqanı (IBAC) bu xüsusda Assambleya Bürosuna öz məruzəsini təqdim etdi. İstintaq orqanı Azərbaycana qarşı korrupsiya iddiaları ilə bağlı heç bir fakt aşkarlamayıb və son nəticədə AŞ PA-nın ölkəmizlə əlaqədar fəaliyyətlərində deputatlarını, xüsusilə məruzəçilərin işində neytrallıq tələblərinin pozulmadığı qənaətinə gəldi.

İstintaq orqanı təsdiq edirdi ki, 2008-ci ildən bəri AŞ PA-nın Azərbaycanla bağlı bütün məruzələri, o cümlədən seçki müşahidə missiyalarının bütün məruzələri və öz məğlubiyyətləri ilə barışmaq istəməyən güc mərkəzlərinin və antiazərbaycan qüvvələrin müzakirə obyektinə çevrilmiş 2013-cü il tarixli "siyasi məhbus"lara dair Ştrasser məruzəsi deputatların neytrallığına təsir göstərilmədən qəbul edilib. Bu ilin fevralında Milan şəhər məhkəməsinin məlum korrupsiya ittihamları əleyhinə qətnamə çıxarması və deputat Volontenin tam təmizə çıxmasının ardınca növbəti korrupsiya hesabatını dövriyyəyə buraxmaq AŞ PA-da Azərbaycan əleyhinə ikili standartlar siyasətinin yeni mərhələsi kimi xarakterizə olunur. Yəni Müstəqil Araşdırma Qurumu təşkilat daxilində korrupsiya ilə bağlı əsası olmayan hesabatı sırf qərəzdən qaynaqlanır. Məhz bu hal AŞ PA-nın ikili standartlar kimi problemdən hələ də xilas ola bilmədiyini bir daha göstərir.

Aydın görünür ki, öz milli maraqlarına uyğun müstəqil siyasət yürüdən və prinsipial mövqeyi ilə seçilən Azərbaycanın siyasəti AŞ PA-da bir çoxlarına sərf etmir. Əks təqdirdə qurum daha çox islamofobiya, ksenofobiya, irqi və dini ayrı-seçkiliyin baş alıb getdiyi, insan hüquqlarının, ifadə azadlığının kobud şəkildə pozulması hallarının artdığı Avropanın gələcəyi barədə düşünər və bu problemlərin aradan qaldırılması yollarını axtarardı.

Lakin buna gedilmir, əvəzində yenə Azərbaycan hədəf olaraq seçilir. Aydındır ki, Avropa Şurasında bəzi dairələr Azərbaycanın üzərinə belə hücumu fonunda ölkəmizin bu qurumla münasibətlərinə yenidən baxması qaçılmaz olacaq. Çünki qurum ölkəmizlə əməkdaşlıqda maraqlı yox, qərəzli tərəf kimi çıxış edir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Vaşinqtonda Transxəzər regionu ilə bağlı strateji müzakirələr aparılıb

Əvvəli 1-ci səh.

Daha sonra ABŞ Ticarət Nazirliyinin Beynəlxalq ticarət administrasiyasının direktoru Matyü Edvard ticarət naziri Vilbur Rosun tədbirlə bağlı xoş arzularını çatdırıb və 2016-cı ildən bəri Vaşinqtonda təşkil edilən sözügedən forumun region ölkələri ilə yeni əməkdaşlıq imkanlarının təşviqi baxımından vacib platforma olduğunu ifadə edib. O, çıxışında ABŞ şirkətlərinin tarixi İpək yolunun canlandırılmasında region ölkələrinin gördüyü işlərə yaxından cəlb edilməsi üçün böyük potensialın olduğunu qeyd edib. Natiq həmçinin Transxəzər dəhlizi ölkələrini dəstəkləmək üçün ABŞ Ticarət Nazirliyi tərəfindən həyata keçirilən proqramlar barədə də məlumat verib.

Sonra Azərbaycanın və forumun digər təşkilatçı dövlətlərinin ABŞ-dakı səfirləri çıxış ediblər. Ölkəmizin ABŞ-dakı səfiri Elin Süleymanov Transxəzər Forumunun Azərbaycanın regionda ticarət, tranzit əlaqələrinin təmin edilməsində mərkəzi rolunu, xarici investisiyalar və ticarət üçün işgüzar dostluq mühitinin təqdim edilməsində potensialını vurğulamaq üçün başlıca platforma olduğunu bildirib. O, bu tədbirin Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi ərəfəsinə təsadüf etdiyini və Sovet İttifaqının süqutundan sonra Azərbaycanın müstəqilliyini yenidən bərpa edən digər region ölkələri ilə bərabər böyük inkişaf yolu keçdiyini söyləyib.

Səfir hazırda regionun tranzit potensialının inkişafında Azərbaycan hökumətinin fəaliyyətinə diqqəti çəkərək, bu işdə mövcud vacib enerji və nəqliyyat infrastruktur layihələrinin əhəmiyyətini vurğulayıb. Bu xüsusda diplomat ABŞ şirkətləri ilə əməkdaşlığın önəmli olduğunu və cari il mayın 15-18-də Azərbaycandakı Amerika Ticarət Palatası tərəfindən ilk dəfə olaraq Vaşinqtona işgüzar missiyanın səfərinin bu əməkdaşlığa əlavə töhfə verəcəyinə əminliyini ifadə edib.

E.Süleymanov Azərbaycanın regionda lider rolunun ölkə başçısının strateji və uzaqgörən baxışı ilə bağlı olduğunu vurğulayıb, həyata keçirilən irimiqyaslı layihələrdən, o cümlədən Bakı-Tbilisi-Qars, Bakı Beynəlxalq Ticarət Limanı, Bakı Karqo Terminalını xatırladıb, bu layihələrin regionun tranzit potensialının artırılmasında xüsusi rolunu qeyd edib. Bununla yanaşı, Azərbaycan diplomatı nəqliyyat və tranzitlə bərabər Azərbaycanın həm də peyk ölkəsinə çevrildiyini bildirib.

Forum təşkilatçılarına, o cümlədən ABŞ Ticarət Palatası və Xəzər Siyasət Mərkəzinə təşəkkürünü ifadə edən səfir tanınmış amerikan diplomatı Riçard Houqləndin aparıcı rolunu vurğulayıb. Azərbaycan diplomatı Ermənistan-Azərbaycan münaqişəsinə toxunaraq, bu münaqişənin regionun tam inteqrasiyası və əməkdaşlığına maneə olduğunu və ABŞ-ın sabiq həmsədri R.Houqlənd kimi, ATƏT-in Minsk qrupunun həmsədrlərinin sülhə nail olunmasına sadiq qalaraq səylərini artıracağına ümid bəslədiyini söyləyib.

Daha sonra E.Süleymanov vaxtilə digər aparıcı ölkələrin təcrübəsini öyrənən Azərbaycanın "ASAN xidmət" kimi öz milli brendini yaratdığını və bu təcrübənin regionun digər ölkələrində tətbiq edildiyini deyib. Bildirib ki, bu təcrübənin bölüşülməsi və gələcək əməkdaşlıq imkanlarının müzakirəsi baxımından "ASAN xidmət"in nümayəndəsinin keçirilən tədbirdə iştirakı xüsusi əhəmiyyət daşıyır.

Daha sonra Əfqanıstan, Türkiyə, Gürcüstan və Türkmənistanın ABŞ-dakı diplomatik nümayəndəlik rəhbərləri Transxəzər dəhlizinin üstünlükləri və görülən işlər barədə danışıb, həmçinin bu forumun ABŞ-ın paytaxtında keçirilməsinin əhəmiyyətini, cəlb olunmuş dövlətlər arasında əməkdaşlığın daha da artırılmasında və bunun ölkələrin iqtisadi inkişafında vacibliyini qeyd ediblər.



Forum çərçivəsində Transxəzər dəhlizi ölkələrində biznes və sərmayə şəraiti, dəniz, dəmir yolu və hava nəqliyyatının imkanları, regionun enerji təchizatı və təhlükəsizliyi baxımından qlobal mərkəzə çevrilməsi, eləcə də texnologiya və innovasiyalar üzrə təşkil edilən 4 paneldə dövlət və şirkət nümayəndələri çıxışlar edib, müzakirələr aparılıb, suallar cavablandırılıb.

Tədbirin sərmayə və ticarət mövzusuna həsr olunmuş və səfir R.Houqləndin moderatorluğu ilə keçən ilk paneldə çıxış edən Azərbaycanın nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini Elmir Vəlizadə ölkəmizdə ticarət, nəqliyyat və tranzit sahəsində dövlət siyasətindən danışıb. O, Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə son dövrlər aparılan islahatlar və əldə edilən nəticələr barədə ətraflı məlumat verib.

Nazir müavini Azərbaycanın biznes mühiti sahəsində aparıcı beynəlxalq reytinqlərdə mövqeyini yaxşılaşdırdığını və ABŞ şirkətləri üçün qeyri-neft sektoru, o cümlədən nəqliyyat və logistika, yüksək texnologiyalar, infrastruktur, sənaye və digər sahələrdə əməkdaşlıq üçün yeni imkanların yarandığını vurğulayıb. Bu paneldə həmçinin ABŞ Prezidentinin köməkçisinin müavini və Ağ ev Milli Təhlükəsizlik Şurasının Mərkəzi Asiya üzrə Baş direktoru Liza Kurtis, Əfqanıstan Prezidentinin infrastruktur və texnologiya üzrə köməkçisi Mohammad Qayumi, Türkiyənin iqtisadiyyat nazirinin müavini Fatih Metin, Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf nazirinin müavini Qenadi Arveladze çıxış edərək regionun geostrateji əhəmiyyətindən bəhs edib, burada həyata keçirilən infrastruktur layihələrinin və Transxəzər dəhlizinin üstünlüklərindən danışıblar.

L.Kurtis çıxışında həmçinin ABŞ-ın Qafqaz və Mərkəzi Asiya ölkələrinin müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünü dəstəklədiyini, eləcə də Xəzər regionunun həmişə ABŞ-ın xarici siyasətinin ən vacib prioritetlərindən olduğunu və bu siyasi kursun indiki administrasiya tərəfindən daha da gücləndiriləcəyini qeyd edib.

Nüfuzlu beyin mərkəzi olan "Heritage" Fondunun nümayəndəsi Lük Kofenin moderatorluğu ilə keçən nəqliyyat infrastrukturunun inkişafına həsr olunmuş növbəti paneldə çıxış edən Bakı Beynəlxalq Dəniz Ticarət Limanı baş direktorunun müşaviri Tural Əliyev Azərbaycanın nəqliyyat infrastrukturu və dəhlizlər barədə məlumat verib, eləcə də limanın tikintisi üzrə görülən işlərdən, azad ticarət zonasının yaradılmasından və onun regionda nəqliyyat-logistika qovşağına çevrilməsi istiqamətində oynayacağı roldan bəhs edib.

Bu paneldə çıxış edən Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin rəsmisi Tariyel Mirzəyev təmsil etdiyi şirkətin Transxəzər dəhlizindəki rolu, bu dəhliz üzrə daşımaların artırılması imkanları, marşrut boyu "bir pəncərə" sisteminin tətbiqi, regional tərəfdaşlığın gücləndirilməsi, regionda həyata keçirilən infrastruktur layihələri barədə məlumat verib.

Enerji sahəsinə həsr olunmuş və ABŞ-ın Azərbaycandakı sabiq səfiri Robert Sekutanın moderatorluğu ilə keçən paneldə çıxış edən SOCAR-ın vitse-prezidenti Elşad Nəsirov ölkəmizin enerji siyasəti, enerji dəhlizləri, bu şirkətin regionda gördüyü işlər, mövcud və tikilməkdə olan neft və qaz layihələri barədə söz açıb.

O, gələn ay Avropanın enerji diversifikasiyası və təhlükəsizliyində xüsusi rol oynayacaq "Cənub qaz dəhlizi"nin Transanadolu (TANAP) qaz boru kəməri hissəsinin açılış mərasiminin keçirilməsinin nəzərdə tutulduğunu bildirib. Bu paneldə həmçinin "BP Azerbaijan" şirkətinin vitse-prezidenti Bəxtiyar Aslanbəyli və "Equinor" (əvvəlki "Statoil") şirkətinin vitse-prezidenti, Vaşinqton ofisinin rəhbəri Qeir Vestqard çıxış edib və Azərbaycanla həyata keçirilən uğurlu əməkdaşlıqdan danışıblar.

İnnovasiya və texnologiyalar sahəsinə həsr olunmuş sonuncu paneldə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin aparat rəhbəri Azad Cəfərli və "Azərkosmos" ASC-nin sədrinin müşaviri Abbas Məmmədov çıxış ediblər. A.Cəfərli "ASAN xidmət" təcrübəsi və onun Transxəzər regionunda indiyədək həyata keçirilmiş tətbiqi və gələcək perspektivlərindən danışıb. A.Məmmədov isə "Azərkosmos"un fəaliyyəti, xidmətləri və regionda qarşılıqlı faydalı əməkdaşlığın inkişaf etdirilməsi sahəsində atılacaq növbəti addımlar, habelə peyk sənayesində ABŞ şirkətləri ilə uğurlu əməkdaşlıqdan bəhs edib.

Ümumilikdə forumun ilk günü Transxəzər dəhlizinin üstünlükləri iştirakçıların diqqətinə çatdırılıb. Digərləri ilə müqayisədə bu dəhlizin daha qısa olması və gələcəkdə Çindən Avropaya daşımaların 15-20 günə çatdırıla bilmə potensialı, dəhliz boyu sabitlik və təhlükəsizliyin hökm sürməsi, dəhliz dövlətləri arasında sıx əməkdaşlıq, artan ticarət, müasir standartlara cavab verən infrastruktur və azad ticari zonaların mövcudluğu, "bir pəncərə" sisteminin tətbiqi və daha da müasirləşməkdə olan sərhəd-keçid və gömrük rəsmiləşdirməsi prosedurları və vurğulanıb.

Qeyd edək ki, forum Azərbaycan, Əfqanıstan, Gürcüstan, Qazaxıstan, Türkiyə, Özbəkistan və Türkmənistanın ABŞ-dakı səfirliklərinin dəstəyi ilə keçirilir. Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, "Boeing", "Chevron", "Schneider Group", "Caspian Foundation", ABŞ-Azərbaycan Ticarət Palatası, Amerika Xarici Siyasət Şurası nəzdində Mərkəzi Asiya və Qafqaz İnstitutu, ABŞ-Gürcüstan Biznes Şurası, Amerikanın Azərbaycanda Ticarət Palatası, Amerikanın Gürcüstanda Ticarət Palatası, Amerikanın Qazaxıstanda Ticarət Palatası, ABŞ-Qazaxıstan Biznes Assosiasiyası, ABŞ-Türkiyə Şurası Forumun tərəfdaşlarıdır. "Boeing", "Chevron", "Schneider Group" və "Caspian Foundation" şirkətləri builki forumun sponsorlarıdır.

Forumda Azərbaycanı Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, SOCAR, Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi", "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC, "Azərkosmos", "Azərbaycan Hava Yolları" QSC, "Silk Way" və "Azərsun Holding"in nümayəndələri təmsil edir. Eyni zamanda, foruma Azərbaycanda Amerika Ticarət Palatası ("AmCham") tərəfindən Vaşinqtona səfəri həyata keçirilmiş missiyanın üzvləri də qatılıb.

Transxəzər Forumu çərçivəsində həmçinin ABŞ Konqresində brifinq və nüfuzlu "Heritage" Fondunda analitik müzakirələr nəzərdə tutulub. Bundan başqa, Azərbaycan nümayəndə heyətinin Vaşinqtona səfəri zamanı Ağ ev, Dövlət Departamenti, Ticarət Nazirliyi, ABŞ Ticarət Palatası və Konqresdə ikitərəfli görüşləri keçirilib.

Xatırladaq ki, Azərbaycanın təşəbbüsü ilə ərsəyə gəlmiş Transxəzər Forumu 2016-cı ildən etibarən hər il Vaşinqtonda keçirilir.




# İqtisadiyyatda qazanılan uğurlar Gəncənin sürətli inkişafını təmin edir

*Əvvəli 1-ci səh.*

Hazırda ümumi sahəsi 5 min kvadratmetrdən çox olan "Majestik" mehmanxanasının və ümumi sahəsi 2 min 500 kvadratmetr olan "Otel Univermaq"ın, həmçinin Hacıkənd qəsəbəsində 7 mərtəbəli ARFA mehmanxanasının və "Nizami Gəncəvi - sələfləri və xələfləri" adlı parkın inşası davam etdirilir.

Şəhərdə çoxmərtəbəli binaların da təmiri aparılır. Artıq dövlət vəsaiti ilə 14 çoxmərtəbəli yaşayış binasının dam örtüyü dəyişdirilmiş, 31 lift əsaslı və cari təmir edilərək sakinlərin ixtiyarına verilmişdir. Ayrı-ayrı ünvanlarda yerləşən inzibati binaların, ticarət, məişət və digər xidmət obyektlərinin ətrafında abadlıq işləri görülmüşdür. Hazırda nümunəvi məhəllələrin yaradılması istiqamətində iş aparılır. Layihənin həyata keçirilməsində əsas məqsəd şəhər sakinlərinin, xüsusilə uşaqların və gənclərin, təqaüdçülərin istirahətini səmərəli təşkil etməkdir.

Əhalinin təbii qazla təminatı istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilmişdir. Belə ki, qaz təchizatının yenidən qurulması, mavi yanacaqla təchiz olunmayan yaşayış ərazilərinə qaz xətlərinin çəkilməsi, əhaliyə verilən təbii yanacağın dəyərinin vaxtında ödənilməsi məqsədilə mənzillərdə müasir sayğaclar quraşdırılmışdır. Bundan başqa, şəhər qaz şəbəkəsində nəql edilən mavi yanacağın təchizatının yaxşılaşdırılması, istehlakçılara verilən qazın təzyiq rejimlərinin nizamlanması və qaz itkisinin qarşısının alınması məqsədilə ayrı-ayrı ünvanlarda 1025 qaz tənzimləyici qutu və 568 siyirtmə yenisi ilə əvəz edilmişdir. İstehlakçıların fasiləsiz qazla təmin edilməsi məqsədilə Sadıllı və Cavad xan qəsəbələrində, Turqut Özal və Vəli Xuluflu küçələrində yüksək təzyiqli qaz boruları dayaqlar üzərinə qaldırılmışdır.

Dövlət başçısının tapşırığına əsasən Gəncənin müasir tarixində ən böyük sosial layihə olan içməli sü xəttinin və kanalizasiya sisteminin yenidən qurulması davam etdirilir. Artıq layihə çərçivəsində indiyədək ümumi uzunluğu 884 kilometr olan su xəttinin 179,7 kilometri, ümumi uzunluğu 891 kilometr olan kanalizasiya xəttinin 176,8 kilometrinin çəkilişi başa çatdırılmışdır.

Ulu öndər Heydər Əliyevin ölkəmizdə elm və təhsilin, səhiyyə və mədəniyyətin inkişafı istiqamətində başladığı işlər Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir. Bu sahələrin inkişafı istiqmətində son illər Gəncədə bir sıra məqsədyönlü işlər həyata keçirilmişdir. Belə ki, bu vacib sahənin maddi-texniki bazasının getdikcə möhkəmləndirilməsi, eləcə də ən müasir avadanlıqlarla təchiz olunması, yeni məktəblərin tikilməsi, mövcud məktəblərin əsaslı şəkildə yenidən qurulması və təmiri daim diqqət mərkəzində saxlanılır. Təkcə keçən il 280 şagird yerlik "İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziya" üçün yeni tədris korpusu və yataqxana, 1 və 14 nömrəli orta məktəb əsaslı təmirdən sonra istifadəyə verilmişdir.









Şəhərin məktəbəqədər tərbiyə müəssisələrində də işlərin müasir dövrün tələblərinə uyğunlaşdırılması, uşaqların təlim-tərbiyəsi və ərzaq təminatı məsələləri diqqət mərkəzində saxlanılır. Ötən il ümumilikdə 360 yerlik 1 və 44 saylı körpələr evi-uşaq bağçaları əsaslı təmirdən sonra istifadəyə verilmişdir. Hazırda Məhsəti qəsəbəsində 120 yerlik körpələr evi-uşaq bağçasının tikintisi davam etdirilir.

Gəncədə fəaliyyət göstərən ali təhsil ocaqlarında da məqsədyönlü işlər həyata keçirilmişdir. Azərbaycan Dövlət Aqrar Universitetində baytarlıq təbabəti və zoomühəndislik fakültəsinin nəzdində yaradılmış müasir baytarlıq klinikası ən müasir avadanlıqlarla təchiz edilmişdir. Gəncə Dövlət Universitetində maddi-texniki bazanın möhkəmləndirilməsi, tədris laboratoriyalarının zənginləşdirilməsi istiqamətində işlər davam etdirilmişdir. Universitetin 5-ci tədris binasında əsaslı təmir işləri başa çatdırılmış, yeni avadanlıq və inventarlarla təmin olunmuşdur. Azərbaycan Texnologiya Universitetində təmir işləri aparılmış, Gəncə Dövlət Regional, Tibb və Musiqi kolleclərinə təzə tədris vəsaitləri və avadanlıqları gətirilmiş, ərazilərdə abadlıq işləri görülmüşdür.

Məlum olduğu kimi, səhiyyə sektorunun inkişafı ilə bağlı islahatlar dövlətimizin həyata keçirdiyi sosial siyasətin başlıca istiqamətlərindən biridir. Səhiyyə ilə bağlı mühüm dövlət proqramlarının həyata keçirilməsi, əhalinin sağlamlığının daha etibarlı şəkildə qorunması, onların ən yüksək səviyyədə tibbi xidmətlərlə təmin olunması bu istiqamətdə gerçəkləşən siyasətin əsas prioritetlərındəndir. Odur ki, şəhərin səhiyyə infrastrukturunun inkişafı, əhalinin sağlamlığının mühafizəsi, sakinlərə tibbi xidmətin səviyyəsinin yüksəldilməsi, müalicə-profilaktika işlərinin təkmilləşdirilməsi, infeksion-yoluxucu xəstəliklərin yayılmasının qarşısının alınması və bütövlükdə şəhərdə sanitar-epidemioloji sabitliyin təmin edilməsi daim diqqət mərkəzində saxlanılır. Aparılan abadlıq və yenidənqurma işləri çərçivəsində səhiyyə ocaqlarının müasir tələblər səviyyəsində qurulmasına diqqətlə yanaşılır. Gəncə psixatriya xəstəxanası üçün beynəlxalq standartlara uyğun 2 korpus və bir neçə yardımçı bina inşa edilmiş, təcili tibbi yardım xəstəxanasının travmatologiya şöbəsində, 1 saylı birləşmiş uşaq xəstəxanasında, 2 saylı birləşmiş uşaq xəstəxanasının anesteziologiya və reanimasiya şöbələrində əsaslı təmir işləri aparılmışdır.

Şəhərdə turizmin davamlı inkişafı, mədəniyyət müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi, müasir standartlara uyğun yeni mədəniyyət ocaqlarının tikilib istifadəyə verilməsi, mövcud mədəniyyət müəssisələrinin əsaslı şəkildə yenidən qurulması da diqqətdə saxlanılır. Hazırda "Şah Abbas" və "Uğurlu xan" karvansaraylarının əsaslı təmir və bərpası, Hacıkənd qəsəbəsində Nazami Gəncəvi parkının salınması istiqamətində işlər davam etdirilir.

Gəncəlilər görülən işləri son hədd hesab etmirlər. Onlar Gəncənin bundan sonra da böyüyüb inkişaf etməsi üçün əllərindən gələni əsirgəmir, yorulmaq bilmədən çalışırlar.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Hədəflər məlumdur



Oğuz rayonunda ilin sonunadək görüləsi işlərlə bağlı konkret istiqamətlər məlumdur. İlk hədəf sahibkarlığın inkişafına dəstək verilməsidir. Digər vacib istiqamət rayonun sosial-iqtisadi inkişafı templərinin müəyyən edilməsi, yeni iş yerləri, istehsal sahələri və ixracyönümlü istehsal sahələrinin, eləcə də sənaye zonasının yaradılmasıdır.

Oğuzda problemlərdən biri uzun müddət istifadəsiz qalan torpaq sahələridir. Problemin həlli üçün həmin sahələrin sahibləri ilə əlaqə saxlanılır. Amma bəzi hallarda həmin şəxslər təkliflərə etinasız yanaşırlar. Ona görə də hesab edilir ki, bu istiqamətdə həm inzibati, eyni zamanda stimullaşdırıcı tədbirlər həyata keçirilməlidir.

Rayonda ərzaq təhlükəsizliyi proqramının icrası ilə bağlı kənd təsərrüfatında məhsuldarlığın artırılması, subsidiyaların verilməsində şəffaflığın təmin edilməsi də diqqət yetirilən sahələrdəndir. Paralel olaraq daha çox kənd təsərrüfatı texnikaları alınmalı və onlardan səmərəli istifadə edilməlidir. Son məqsəd isə iri fermer təsərrüfatlarının yaradılmasına nail olmaqdır.

Oğuz üçün ənənəvi sahələrdən olan tütünçülük, üzümçülük, fındıqçılıq və baramaçılığın inkişafına nail olmaq da prioritetlər sırasındadır. Amma bu sahələrdə məhsul istehsalının artmasına nail olmaq üçün konkret təkliflər hazırlanmalıdır.

Füsunkar təbiəti ilə görənlərin yaddaşında iz salan Oğuzun turizm infrastrukturunun yaradılması da həlli vacib məsələlərdəndir. Bununla bağlı qərara alınıb ki, konkret təkliflər hazırlanaraq aidiyyəti qurumlara təqdim olunsun.

Gələcəyə yönəlik proqram xarakterli təkliflər paketi hazırlandığı bir zamanda digər cari məsələlər də diqqətdə saxlanılır. "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası istiqamətində çoxsaylı işlər görülür. Xatırladaq ki, sonuncu Dövlət Proqramına Oğuz rayonunun sosial-iqtisadi inkişafı ilə bağlı 13 maddə daxil edilib. Konkret işlərə keçdikdə rayonda südlük və ətlik istiqamətli cins mal-qara yetişdirilməsi istiqamətində tədbirlər davam edir. Mal-qaranın süni mayalandırılması işi təşkil edilib və hesabat dövründə 305 baş buzov alınıb. "Aqrolizinq" ASC-nin Oğuz Aqroservis filialı kənd təsərrüfatı texnikası ilə təmin edilib.

Yerli əhəmiyyətli avtomobil yollarının və körpülərin tikintisi, yenidən qurulması və əsaslı təmirini davam etdirmək üçün tədbirlər planı hazırlanıb. Həmin plan çərçivəsində Baş Daşağıl kənd, Oğuz-Xaldan yollarına qum-çınqıl döşənir. Hazırda hər iki yolda işlər davam edir. İlin əvvəlindən rayonda açılan 49 yeni iş yerinin hamısı daimidir. Onlardan 47-si fiziki şəxslərin fəaliyyəti nəticəsində yaradılıb.

Ənənəvi sahələrin dirçəldilməsinə gəldikdə, cari ildə fermerlər tərəfindən 8000 kiloqrama yaxın xam baramanın istehsalı nəzərdə tutulub. Hazırda ipəkqurdu bəslənilir. Kümçülər proqnozlaşdırılan həcmdə barama istehsalına nail olacaqlarına əmindirlər.

Tütünçülükdə də işlərin qızğın çağıdır. Bu il rayon üzrə 250 hektarda tütün əkməyə qərar verilib. Artıq sahələrə şitillərin köçürülməsi prosesi yekunlaşma mərhələsindədir. Tütün əkininə görə subsidiyaların hesablanaraq vətəndaşların bank hesablarına köçürülməsi bu sahəyə olan marağı daha da artırıb.

***Əli SƏLİMOV,***
***"Azərbaycan"***

# Pambıq tarlaları hünər meydanına çevrilib

Pambıq dədə-babadan bu yerlərin "çörək ağacı" olub. Onun bolluğu kənd əhalisinin yaxşı dolanışığını, firavan həyatını təmin edib. Kənd təsərrüfatında ənənəvi sahələrin, o cümlədən pambıqçılığın inkişafı üçün görülən tədbirlər canlanma yaratmışdır. Dövlətin davamlı qayğısından güc alan Ağcabədi bahadırları "ağ qızıl"ın əvvəlki şöhrətini qaytarmaq üçün əzmlə çalışır, səy və bacarıqlarını əsirgəmirlər.

Rayonun pambıq ustaları keçən il 20.497 ton pambıq tədarük etmiş, hər hektardan 21,5 sentner məhsul götürmüşlər. Bu nəticə respublikanın pambıqçılıq rayonları arasında qazanılan yüksək göstəricilərdəndir. Ağcabədi pambıqçıları cari ildə nailiyyətləri daha da artırmaq əzmindədirlər. Bu məqsədlə 10 min hektara yaxın sahəyə çiyid səpilmişdir. Keçən ildəkindən xeyli çox olan səpinin optimal müddətdə aparılmasının, aqrotexniki tələblərə ciddi əməl olunmasının nəticəsidir ki, sahələrin hər yerində normal çıxış alınmışdır. Hazırda pambıq əkinlərinin birinci kompleks becərilməsi gedir. Cərgə aralarına kultivasiya çəkilir, bitkilərin normal inkişafını təmin etmək üçün tarlalara yemləmə gübrəsi verilir.

Rayon kənd təsərrüfatı idarəsinin rəisi Abbas Süleymanov dedi ki, son illər pambıqçılığın inkişafı kənd camaatının maddi durumunu əhəmiyyətli dərəcədə yaxşılaşdırmışdır. 10 min hektarda pambığın əkilib-becərilməsi, yığılıb təhvil verilməsi minlərlə yeni iş yeri, milyon manatlarla qazanc deməkdir. İdarənin mütəxəssisləri müntəzəm qaydada təsərrüfatlarda olur, qarşıya çıxan problemlərin həllində qayğı və köməklərini əsirgəmir, pambıqçılara zəruri metodiki göstərişlər və tövsiyyələr verirlər. İdarəmizin nəzdində yaradılmış "Ağcabədi Kənd Təsərrüfatı" MMC birbaşa pambıq istehsalı ilə məşğuldur. MMC keçən il 410 hektar sahədə pambıq əkib-becərmiş, qarşıya qoyulan vəzifəni yerinə yetirmişdir. Cari ildə pambıq əkinlərini genişləndirib 1083 hektara çatdırmışıq. Bu, əvvəlki illə müqayisədə 2,5 dəfə çoxdur. İndi becərmə işlərinin qızğın çağıdır. Tarlalarda 12 becərmə aqreqatı işləyir. Kultivasiya ilə birlikdə tarlalara yemləmə məqsədilə mineral gübrə verilir.

Rayonun pambıqçılıqla məşğul olan torpaq istifadəçilərinin əksəriyyəti "MKT Ağcabədi" və "ÇTS Aqro" şirkətinin filialları ilə müqavilə bağlamışdı. Rayon icra hakimiyyətində fəaliyyət göstərən qərargah təşkilatçılıq funksiyasını yerinə yetirir, pambıqçıların üzləşdikləri çətinlik və problemləri operativ həll edir.

***Lazım QULİYEV,***
***"Azərbyacan"***



## Quba xəbərləri

### Keçid bərpa olunur, qaz xətti çəkilir



Qubanın köhnə avtovağzal dairəsindəki yerüstü keçidin bərpası başa çatmaq üzrədir. Burada avtobus dayanacağı üçün yer ayrılıb. Yerüstü keçiddə işıqlandırma sistemi və müşahidə kameraları quraşdırılacaq. Şəhərin Heydər Əliyev prospekti 196 ünvanında yerləşən beşmərtəbəli yaşayış binasında da əsaslı təmir işlərinə başlanılıb.

Rustov İnzibati Ərazi Dairəsinin Rustov, Kələbağ, Cədəri, Qamqam, Hacağalar, Püstəqasım, Dəhnə kəndlərinin sakinləri artıq üçüncü ildir ki, təbii qazdan istifadə edirlər. Ərazi dairəsində bu istiqamətdə işlər davam edir. Bir neçə gündür ki, Güney məhəllə yaşayış məntəqəsinə qaz xətti çəkilir. Bu işin iyun ayının axırınadək başa çatdırılması nəzərdə tutulub.

### Hacıhüseynli yolu istifadəyə verildi



Quba-Xaçmaz avtomobil yolunun 13-cü kilometrliyindən - Barlı-Hacıhüseynli-Gənclər qəsəbəsi istiqamətində avtomobil yolunun tikintisinə martın əvvələrində başlanmışdı. İnşaat işlərini 5 saylı yol istismarı idarəsi həyata keçirib.

Yolda dəmir-beton boruların quraşdırılması və izolyasiya işləri də görülmüşdür. Əsas yoldan Hacıhüseynli kəndinin mərkəzinədək 2,5 kilometr, Hacıqayıb kəndinədək 2 kilometr, Qımıl Qışlaq kəndinədək 1 kilometr yolda da təmir işləri aparılmış, asfalt döşənmiş, yol nişanları, göstəricilər quraşdırılmışdır. Bundan sonra Hacıhüseynli inzibati ərazi dairəsində yaşayan əhalinin gediş-gəlişi xeyli asanlaşmışdır.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

# Milli naxışların sehrində...







Şəki Xan Sarayı ecazkarlığı ilə seçilən tarixi abidələrimizdəndir. Burada milli naxışlardan geniş istifadə olunub. Sarayın divarlarında, tavanında, pəncərələrində olan naxışlar xüsusi gözəlliyi ilə seçilir. Çünki hər bir naxış öz quruluşu və rənglərin zənginliyi ilə təkrarolunmazdır. Şəkiyə gələn turistlər Xan Sarayındakı milli naxışların sehrinə heyranlıqla baxır və bu gözəllikdən aldıqları zövqü səfər yoldaşları ilə bölüşür, xatirə üçün şəkil çəkdirirlər.

*"Azərbaycan"*
*Foto Fərman BAĞIROVUNDUR*

# Beynəlxalq aləm
## HADİSƏLƏR, FAKTLAR

## Kubada sərnişin təyyarəsi qəzaya uğradı



Kubanın paytaxtı Havananın ətrafında yerli "Cubana de Aviacion" aviasiya şirkətinə məxsus sərnişin təyyarəsi qəzaya uğramışdır. Havana-Olgin reysini həyata keçirən Boeing 737-200 havaya qalxdıqdan az sonra Xose Marti adına beynəlxalq hava limanının yaxınlığında yerə çırpılmışdır.

Təyyarəni Meksikanın "Damojh Global Air" şirkəti icarəyə götürmüşdü. Layneri altı nəfərdən ibarət Meksika heyəti idarə edirdi.

Təyyarədə heyət üzvlərindən başqa 104 nəfər, o cümlədən beş uşaq olmuşdur. Sərnişinlərin beşi əcnəbi, qalanları Kuba vətəndaşları idi. Hadisə zamanı əvvəlcə dörd nəfər sağ qalmış, sonra onlardan biri xəstəxanaya aparılarkən yolda vəfat etmişdir. Üç qadın ağır vəziyyətdədir.

Təxminən 40 ildir istismar edilən layner yerə düşərkən yanğın nəticəsində tamamilə dağılmışdır.

## İraqda parlament seçkilərində Sədr bloku qalib gəldi



İraqda keçirilmiş parlament seçkilərində tanınmış şiə din xadimi Müqtəda Sədrin bloku qalib gəlmişdir. Yekun rəsmi nəticələrə görə, Sədr bloku parlamentdə 54 yer almışdır. Onun ardınca "Fəth" alyansı (47 mandat) və Baş nazir Heydər İbadinin tərəfdarları (42 mandat) gəlirlər.

Hələlik aydın deyil ki, hökumət koalisiyasını hansı qüvvələr təşkil edəcək. 44 yaşlı Sədrin özü heç bir halda Baş nazir vəzifəsini tuta bilməyəcək, çünki o, rəsmən seçkilərdə iştirak etməmişdir. Onun bloku seçkilərdə kommunistlərlə birgə hərəkət edirdi.

Parlamentdə 329 yerə təxminən 7 min nəfər iddia edirdi. İraq konstitusiyasına görə, parlamentin spikeri sünni, Baş nazir şiə, Prezident kürd olmalıdır.

## Texasda məktəb qana boyandı

ABŞ-ın Texas ştatında məktəbdə növbəti qanlı hadisə baş vermişdir. 8-10 nəfər həlak olmuşdur. Onların əksəriyyəti uşaqlardır.

Yerli "KHOU-11" telekanalı xəbər verir ki, bir kişi Hyustonun yaxınlığındakı Santa-Fe qəsəbəsinin məktəbində atəş açmışdır. Hüquq mühafizə orqanlarının məlumatına görə, hadisə zamanı daha bir neçə nəfər, o cümlədən bir polis zabiti yaralanmışdır. Cinayətkar tutulub saxlanmışdır. Onun hərəkətinin səbəbləri barədə hələlik məlumat verilmir.

Bəzi məlumatlara görə, cinayətkar məktəbin şagirdlərindən biridir. O, siniflərin birində atəş açmış və binada partlayıcı maddələr səpələmişdir.

## Əfqanıstan: stadionda partlayış 11 nəfərin həyatına son qoydu



Əfqanıstanın şərqində, Cəlalabad şəhərində stadionda baş vermiş partlayış nəticəsində azı 11 nəfər həlak olmuş, 45 nəfər yaralanmışdır. Bu barədə "əl-Cəzirə" telekanalı xəbər verir.

Yerli hakimiyyət orqanlarının məlumatına görə, terrorçuların əlaqələndirilmiş hücumunun gedişində üç əldəqayırma partlayıcı qurğu işə düşmüşdür. "Sinxua" agentliyi xəbər verir ki, partlayış Ramazan ayı münasibətilə təşkil olunmuş kriket matçı zamanı törədilmişdir. Ölənlər arasında yarışın təşkilatçısı və bir neçə yerli məmur da var.

## ABŞ Venesuelaya qarşı yeni sanksiyalar tətbiq etdi

ABŞ Maliyyə Nazirliyi Venesuelanın bir neçə şirkətinə və vətəndaşına qarşı sanksiyalar tətbiq etmişdir. Bu barədə "Röyter" agentliyi xəbər verir.

Siyahıya Venesuelanın ABŞ-da qeydiyyatdan keçmiş üç təşkilatı - "N27-0746046", "Noor Plantation Investment" və "SAI Advisors Inc." düşmüşdür. Sanksiyalara məruz qalmış dörd venesuelalının - Dyosdado Kabelyo, Xose David Kabelyo, Marleni Xosefina Kontreras və Rafael Alfredo Sarrianın həmin şirkətlərlə birbaşa əlaqəsi olduğu bildirilir.

Qeyd olunur ki, yeni sanksiyalara səbəb Venesuela hakimiyyət orqanlarının adıçəkilən şirkətləri və şəxsləri dəstəkləməsidir.

# Özünüməşğulluq proqramına maraq artıb

Azərbaycanın dövlət siyasətinin başlıca istiqamətlərindən biri əhalinin sosial problemlərinin həllinə nail olmaqdır. Bu baxımdan qeyri-neft sektorunun inkişafı, ənənəvi kənd təsərrüfatı sahələrinin dirçəldilməsi bölgələrdə əmək resurslarının məşğulluğunun əhəmiyyətli şəkildə artırılmasında önəmli rol oynayıb.



Özünüməşğulluq proqramına Ağsuda maraq da artıb. Rayon icra hakimiyyətinin başçısı Ənvər Seyidəliyev bununla bağlı bildirdi ki, layihə keçən ildən start götürsə də, bu il ona maraq göstərənlər daha çoxdur. Bu da səbəbsiz deyil. Keçən il dövlət səviyyəsində heç bir qarşılıq gözlənilmədən mal-material verildikdə sakinlərin bəziləri tərəddüd edirdi. Lakin indi proqramda iştiraka ciddi yanaşırlar. Ötən il layihəyə rayon üzrə cəmi 11 nəfər cəlb edilmişdisə, cari ildə onların sayının təxminən 60 nəfərdən çox olacağı gözlənilir.

Ağsu Rayon Məşğulluq Mərkəzinin direktoru Həsrət İbadov, Beynəlxalq Əmək Təşkilatının rayon üzrə təlimçisi Fariz Xəlilli də görülən işlərdən ətraflı söz açdılar. Dedilər ki, layihə ƏƏSMN ilə BƏT tərəfindən birgə icra olunur. Vəsaiti Azərbaycan hökuməti ayırır, BƏT təlim proseslərinin icrasına dəstək verir.

Artıq "Öz biznesinə başla" təlimi yekunlaşmaqdadır. Rayon üzrə 22 iştirakçı müəyyən olunub. Onlara gündə 4 saat təlim keçirilib. İlk mərhələdə bazar araşdırması aparılır. Ardınca marketinq planı tutulur. Smetalar, proqnozlar müəyyənləşdirilir. Yekunda iştirakçılar imtahan verirlər. İmtahanın nəticələrinə uyğun olaraq onlar mal-material və avadanlıqla təmin edilirlər.

Təkliflərdən asılı olaraq şirniyyat sexləri, dərzi sexi, palaz toxuculuğu üçün də lazımi material ayrılır. İndiki mərhələdə heyvandarlıq, qoyunçuluq, dərzi, şirniyyatçı və videostudiyanın yaradılması ilə bağlı biznes qurmaq istəyənlər var.

Dinləyicilərdən biri - Kifayət Xəlilova ailəlidir, 4 uşaq anasıdır. Ev şəraitində şirniyyat avadanlığı əldə etmək niyyətindədir. Dediyinə görə, bu işi yaxşı bilir. Sadəcə texnologiyanın yoxluğuna görə arzusunu həyata keçirə bilmir.

Pirhəsənli kəndinin sakini Gülzar İxtiyarova da ailədə 4 uşaq böyüdür. Maldarlıqla məşğul olmaq qərarına gəlib. Sərxan Şirazov Ərəbmehdibəy, Övlad Əsgərov Qasımbəyli kəndində yaşayır. Onlar da maldarlıqla məşğul olmaq niyyətindədir. Bu məqsədlə Ağsu Rayon Məşğulluq Mərkəzinə müraciət ediblər. Burada da onların fikirlərini öyrəndikdən sonra özünüməşğulluq proqramına cəlb ediliblər.

***Əli SƏLİMOV,***
***"Azərbaycan"***

# Qrantla "sovrulanlar"

*Antiazərbaycançı şəbəkə buyruq qullarını qəpik-quruş qarşılığında ya maşa, ya da əlcək kimi istifadə edir*

İllərdir antiazərbaycançı şəbəkənin verdiyi qəpik-quruş qarşılığında ara qarışdıran və Azərbaycana qarşı hər cür naxələfliyə razılıq verən bir qrup "qrantyeyən"in nədənsə son günlər "həzm sistemi" yaman pozulub. Çünki əvvəllər bir-birinin "boşqab"ına kənardan baxırdılarsa, indi artıq əl də uzatmağa başlayıblar. Bu isə əməlli-başlı "savaşa" səbəb olub. Neçə gündür ki, sosial şəbəkələrdə "beşinci kolon"la AXCP sədri Əli Kərimlinin "zombi dəstəsi" arasında amansız "qırğın" gedir.

Dəfələrlə sübuta yetirilib ki, əsassız iddiaları və yüngülməcaz düşüncələri ilə ölkənin siyasi arenasında çapalayan və dağıdıcılıq, radikalizm ənənəsinə sahib olan müxalifət düşərgəsi gündəmdən silinməmək üçün əlinə düşən hər fürsətdən istifadə edir. Lakin bu dəfə vəziyyət tam başqadır. Belə ki, antiazərbaycançı şəbəkənin buyruq qulları ölkəmizdə ara qarışdırmaq üçün havadarlarından aldıqları qrantların artıq bölünməsini istəmirlər.

"Beşinci kolon"un üzvü Emin Milli Helsinki komissiyası tərəfindən ABŞ Konqresində Azərbaycanla bağlı keçirilən dinləmələrdəki çıxışında Əli Kərimlinin artıq siyasət meydanında olmadığını, bu şəxsin limitinin tükəndiyini söyləyib. Həmçinin aqressiv müxalifət haqqında tənqidi fikirlər işlədib. Emin Millinin destruktiv müxalifətin, eləcə də onun satellit QHT-lərinin "haqqını" və ayrılan qrantları təkbaşına mənimsəmək cəhdi digər "qrantyeyənlər"in ciddi qəzəbinə səbəb olub. Artıq tərəflər arasındakı "savaş" təhqiramiz forma alıb.

Vaxtilə Azərbaycana qarşı qarayaxma kampaniyasında birgə iştirak edənlərin arasındakı bu savaşın əsl səbəbi də aydındır. Ölkənə qarşı nə qədər çox böhtan atsan, alacağın qrantların da miqdarı və dövriliyi bir o qədər çox olar. Görünən odur ki, Emin Millinin qrant xatirinə vətənsatma "sevdası" digər "qrantyeyənlər"dən bir qədər yüksəkdir.

Əslində qrantverən üçün fərqi yoxdur, təki Azərbaycana qarşı çirkin kampaniyanın ardı-arası kəsilməsin, ölkə daim qarayaxmaya məruz qalsın. Yəni məkrli oyunların hansı qüvvə tərəfindən həyata keçirilməsi antiazərbaycançı şəbəkəni maraqlandırmır. "Qrantyeyənlər" həmin dairələr tərəfindən bir əlcək kimi istifadə olunub kənara atılır və bundan sonra baş verənlər onların əsl mahiyyətini, kim olduqlarını üzə çıxarır.

Görünən odur ki, Azərbaycan xalqına ağıl dərsi keçməyə çalışan, meydana, mitinqlərə səsləyən dağıdıcı müxalifət və "beşinci kolon"un üzvləri "qənimət" üçün bir-birlərini təhqir etməkdən belə çəkinmirlər. Qrant uğrunda bir-birinə qənim kəsilən bu insanların daha şirnikdirici təkliflər qarşısında gözlərini qırpmadan öz vətənlərini, dövlətlərini satacaqları şəksizdir. Necə ki, son zamanlar bunun şahidiyik. Əyri yollarla Avropanın hansısa şəhərinə qaçıb vətəninə naxələf çıxanlar da "qrantyeyənlər"dən fərqlənmirlər. Lakin xalqın gözü tərəzidir və kimin kim olduğunu yaxşı bilir. Azərbaycana qarşı istənilən istiqamətdən atılan daş bumeranq effekti verir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Cümhuriyyət yaşıdının yubileyi qeyd edilib





Qazaxda yaşayan uzunömürlü insanlardan biri də Nəbi Nəbiyevdir. Rayonun Ermənistanla həmsərhəd kəndi olan Kəmərlidə doğulub boya-başa çatan və Azərbaycan Xalq Cümhuriyyətinin yaşıdı olan el ağsaqqalının bu günlərdə 100 illik yubileyi təntənə ilə qeyd edilmişdir.

Qazax Rayon İcra Hakimiyyəti ilə Azərbaycan Müdafiə Nazirliyinin birgə təşkil etdikləri yubiley tədbirində rayon ictimaiyyətinin nümayəndələri ilə yanaşı, tanınmış elm və mədəniyyət xadimləri də iştirak etmişlər.

Kəmərlidə yaşıllıqlar qoynunda keçirilən tədbir münasibətilə hər tərəf al-əlvan bəzədilmişdi. Əllərində üçrəngli Azərbaycan bayraqları tutmuş əsgərlər nizamla düzülmüşdülər. Hərbi orkestrin ifasında səslənən qələbə ruhlu mahnılar yubiley tədbirinə toplaşanlarda xoş əhvali-ruhiyyə yaratmışdı. Sinəsini müxtəlif orden və medallar bəzəyən Böyük Vətən və Qarabağ müharibəsi veteranları üçün ayrıca yer ayrılmışdı.

Tədbir hərbi orkestrin ifasında Azərbaycanın Dövlət himninin səsləndirilməsi ilə başladı. Sonra Böyük Vətən müharibəsində həlak olanların və torpaqlarımızın müdafiəsi uğrunda canlarından keçən oğul və qızlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Yubiley tədbirini giriş sözü ilə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin məsul işçisi Abdulla Qurbani açaraq istər Böyük Vətən müharibəsində, istərsə də Dağlıq Qarabağ uğrunda gedən döyüşlərdə mərd övladlarımızın göstərdikləri şücaətdən danışmış, onlara dövlət qayğısından söhbət açmışdır.

Yubilyarın at belində meydana daxil olması gurultulu alqışlarla qarşılandı. Ehtiyatda olan 100 yaşlı baş leytenant Nəbi Nəbiyev hərbi qaydada raport verərək tədbir iştirakçılarını salamladı və ölkəmizdə müharibə veteranlarına göstərilən qayğıdan söz açdı.

Azərbaycan Respublikası müdafiə nazirinin təbrik məktubu oxunduqdan sonra yubilyara xüsusi hədiyyələr təqdim olundu. Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov "General Əliağa Şıxlinski" yubiley medalını Nəbi Nəbiyevin sinəsinə taxaraq ona ən xoş arzularını bildirdi və Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı sərəncamın əhəmiyyətindən danışdı. Bildirdi ki, istər Böyük Vətən müharibəsində, istərsə də Dağlıq Qarabağ uğrunda gedən döyüşlərdə igidliklə vuruşan hər bir Azərbaycan vətəndaşı dövlətimizin, eləcə də Silahlı Qüvvələrin Ali Baş Komandanının diqqət mərkəzindədir. Bu kateqoriyadan olan insanların mənzil-məişət və həyat şəraitinin yaxşılaşdırılması üçün hər il çoxlu sayda sərəncam imzalanır. Veteranlar pulsuz avtomobillərlə təmin edilməklə yanaşı, onların sağlamlıqlarının bərpa olunması üçün də müxtəlif tədbirlər həyata keçirilir.

Sonra rayon müharibə veteranları şurasının sədri Xanqulu Süleymanov, Azərbaycan Yazıçılar Birliyi Qazax zona filialının sədri, əməkdar incəsətnət xadimi Barat Vüsal, xalq artisti Tariyel Qasımov, kənd sakini Rəhim Rəhimov və başqaları çıxış edərək yubilyara ən xoş arzularını bildirdilər.

Müdafiə Nazirliyinin məsul işçisi Emin Səfərov çıxış edərək tədbirin Qazaxda düşmənlə üz-üzə yerləşən Kəmərli kəndində keçirilməsinin əhəmiyyətindən danışmış və Azərbaycan Ordusunun düşmən üzərində tezliklə qələbə çalacağı günün çox da uzaqda olmadığını qeyd etdi.

Aşıqlardan Hüseyn Dərgahquliyevin və Kifayət Nəbiyevanın ifasında səslənən vətənpərvəlik mahnıları tədbirə xoş ovqat qatdı. Sonda tədbir iştirakçıları 100 yaşlı veteran Nəbi Nəbiyevlə xatirə şəkli çəkdirdilər.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri,
Mətbuat prospekti,
529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-63-82,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8770
Sifariş 1436